AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
Azərbaycan ədəbiyyatı kafedrası

Əlyazması hüququnda

SEVİNC AZAD qızı MƏHƏRRƏMOVA

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN EPİK ŞEİRİNDƏ QARABAĞ MÖVZUSU

İxtisaslaşma: HSM-060201-Azərbaycan ədəbiyyatı

Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş

D İ S S E R T A S İ Y A

Elmi rəhbər: Aytac Xalid qızı Zeynalova

filologiya üzrə fəlsəfə doktoru, dosent

BAKI -2022

MÜNDƏRİCAT

**GİRİŞ………………………………………………………………………..... 3-5**

**I FƏSİL. MÜASİR AZƏRBAYCAN POEZİYASINDA QARABAĞ MÖVZUSUNUN İFADƏSİ............................................................................ 6**

1.1 Qarabağ mövzusunun şeirdə işlənmə arealı....................................................6-17

1.2 Epik şeirdə Xocalı mövzusu.....................................................................18-28

**II FƏSİL. QARABAĞ MÖVZUSU XALQIN MİLLİ LƏYAQƏT PROBLEMİ KİMİ..................................................................................................... .............29**

2.1 Şəhidlik mövzusu və onun epik şeirdə təşəkkül tarixi...................................29-42

2.2 II Qarabağ müharibəsinin ədəbiyyatda əksi..................................................42-58

**NƏTİCƏ..........................................................................................................59-61**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.............................................62-65**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Tarixdən bəlli olduğu kimi, Azərbaycan xalqını azadlıq uğrunda mübarizədən uzaqlaşdırmaq üçün kənar qüvvələr Qarabağı münaqişə meydanına çevirmiş, müstəqilliyə gedən yolda mane olmaq üçün əllərindən gələni əsirgəməmiş, açıq-aşkar seperatçı ermənilərə dəstək göstərməkdən çəkinməmişlər. Ermənilərin bu ərazilərə köçürüldüyü zamandan yaradılmağa başlayan bu münaqişə ocaqları sonradan daha da alovlandırılmışdır. Bütün bunların nəticəsində torpaqlarımızın iyirmi faizi 30 ilə yaxın bir müddətdə düşmən işğalı altında qalmış, insanlarımız öz yurd-yuvalarından qaçqın düşmüş, bu mübarizədə xalqımız saysız-hesabsız şəhidlər vermişdir.

Cəmiyyətimizi ən çox düşündürən bu mövzu, əlbəttə, ədəbiyyatda da öz əksini tapmaya bilməzdi. Öz havadarlarından dəstək alan Ermənistan torpaqlarımızı işğal etdikdən sonra “Qarabağ” mövzusu bizim üçün daha çox kədəri, yurdsuz qalmış insanları, övladsız qalmış anaları, valideynsiz qalmış övladları, doğmalarını itirmiş insanları xatırladır. Yazıçılarımız ədəbiyyatımızda Qarabağ dərdini əks etdirmək üçün kəmiyyət və keyfiyyətcə yetərli əsərlər qələmə almışdır. Bütün bu əsərlər Qarabağ müharibəsindən sonra baş verən hadisələri, insanların ağrı, acılarını, yurd həsrətlərini real boyalarla təsvir etmiş, insanları qələbə üçün ruhlandırmış, ruh düşkünlüyü yaranmasına imkan verməmişdir. Müstəqillik dövründən başlayaraq Qarabağ mövzusuna ədəbiyyatımızda daha çox müraciət olunmuşdur, xüsusilə, son dövrlər baş verən hadisələr, II Qarabağ müharibəsi nəticəsində qazandığımız şanlı qələbə, bu qələbə yolunda canını fəda verən şəhidlərimizin qəlbimizdə açdığı dərin yara, həmin ərazilərdə hər gün mənfur düşmən tərəfindən törədilən təxribatlar bu mövzunu dövrümüz üçün aktul edir.

Təqdim olunan dissertasiya işinin mövzusu ona görə elmi cəhətdən aktual və qiymətlidir ki, Qarabağ mövzusunun ədəbiyyata gəlişini, xüsusilə, epik şeirdə təcəssüm araşdırır.

**Tədqiqat işinin predmeti:** Qarabağ mövzusunun müasir Azərbaycan poeziyasında inikası məsələləri, bu mövzunun xalqın milli ləyaqət hissinə çevrilməsi hadisəsinin ədəbiyyatda ifadəsi tədqiqat işinin predmeti olaraq seçilmişdir.

**Tədqiqat işinin obyekti:** Tədqiqat işinin əsas obyekti müstəqillik dövründə (1990-2022-ci illər) yazılan epik şeirlərdir.

**Tədqiqat işinin məqsəd və vəzifələri:** Dissertasiyanın yazılmasında əsas məqsəd müstəqillik dövündə Azərbaycan epik şeirində Qarabağ mövzusunun ideya-estetik səciyyəsini müəyyənləşdirmək, işğalın və qalibiyyətin ədəbiyyatda ifadə yollarını tədqiq etməkdir. Tədqiqat işində bu iki fərqli tarixi-siyasi situasiyaya müxtəlif bədii-emosional baxış bucaqları araşdırılmış, Qarabağ mövzusunun şeirdə işlənmə arealı və ifadə formaları müəyyənləşdirilmişdir. Tədqiqat işinin əsas vəzifələri çağdaş poeziya nümunələrinə və bu baza əsasında əldə edilmiş müxtəlif elmi qənaətlərə əsasən Zəfər hadisəsindən öncə və sonra Qarabağ mövzusunun müstəqillik dövrü poeziyasında yerini təyin etmək, epik şeirin tarixi hadisələrə münasibəti və onun ifadə üsullarını dəyərləndirmək, sosial ziddiyyətlərin bu əsərlərdə əksini, şəhidlik və qəhrəmanlıq mövzusunun folklor semantikasından başlamış bu günədək tutduğu yeri müəyyənləşdirərək onları iki fəqli aspektdən izah etməkdən ibarətdir.

**Tədqiqatın mənbələri:** Dissertasiyanın işinin yazılma prosesində ədəbiyyatşünaslığa dair elmi əsərlərdən, bundan başqa Mərziyyə Nəcəfova, Elçin Mehrəliyev, Nizami Məmmədov və başqalarının Qarabağ mövzusu ilə bağlı tədqiqatlarından, bu mövzu ilə bağlı müxtəlif kitablar, elmi məqalələr, jurnallar, qəzetlərdən, internet resurslarından bəhrələnilmişdir. Eyni zamanda müstəqillik dövründə yazılan bədii nümunələrə müraciət olunmuş və təhlil edilmişdir.

**Tədqiqat işinin aprobasiyası:** Tədqiqat işi ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmununu əhatə edən ilk məqalə "Dil və Ədəbiyyat" jurnalında nəşr olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işi müstəqillik dövründə Qarabağ mövzusunda yazılan epik şeirlərin araşdırılmasına və təhlilinə həsr olunmuşdur. Tədqiqat işinin əsas yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə olaraq müstəqillik dövründə Qarabağ mövzusunda yazılmış epik şeirlər ayrılıqda araşdırılmış, bundan başqa Zəfər yürüşümüzə həsr olunmuş epik şeir nümunələri ilk dəfə sistemli şəkildə tədqiq edilmişdir.

Vətən müharibəsi və ondan sonrakı dövrlərdə yazılan Fərid Hüseynlinin "Yumruq günü", İlqar Fəhminin "Balaca kişilər", Sabir Rüstəmxanlının "Qarabağa dönüş", Əliraz Həsrətin "Barıt qoxulu çiçək", Balayar Sadiqin "Zəfər simfoniyası" və.s epik şeirlər, eyni zamanda bir çox lirik şeirlər təhlil edilərək Zəfər yürüşümüzün poeziyada hansı səviyyədə öz əksini tapması araşdırılmışdır.

**Mövzunun praktik əhəmiyyəti:** Mövzu həm elmi, həm də praktik baxımdan xüsusi əhəmiyyət daşıyır. İstər birinci, istəsə də İkinci Qarabağ müharibəsindən sonra Qarabağ mövzusunda yazılmış əsərlərin ideya-bədii məzmunu, mündəricəsi fərqli istiqamət aldığı üçün bu əsərlərin sistemli şəkildə tədqiqata cəlb edilməsi işin elmi və praktik əhəmiyyətini artırır. Xüsusilə son iki ildə yaranmış xalqımızın yüksək qələbə əzmini tərənnüm edən şeirlərin bir araya gətirilməsi, onların müxtəlif elmi problemlər ətrafında tədqiqi işin praktik əhəmiyyətini müəyyən edir.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Hər fəsil 2 yarımfəsildən təşkil olunmuşdur.

# I FƏSİL
# MÜASIR AZƏRBAYCAN POEZIYASINDA QARABAĞ MÖVZUSUNUN IFADƏSI

## 1.1 Qarabağ mövzusunun şeirdə işlənmə arealı

Qarabağ dərdi illərlə Azərbaycan xalqının qəlbində dərin bir yara olmuşdur. Erməni daşnakları tarix boyu öz təcavüzkar siyasətlərindən əl çəkməmiş, torpaqlarımızı işğal etməklə qondarma "Böyük Ermənistan" yaratmaq xəyalına düşmüş, dəfələrlə əli silahsız vətəndaşlarımıza hücum etmiş onları vəhşicəsinə qətlə yetirmişlər. İgid oğul və qızlarımız torpaqlarımızın azadlığı uğrunda vuruşmuş, xalqımız bu müqəddəs yolda saysız-hesabsız şəhid vermişdir. İllər boyu xalqın milli ləyaqət problemi olan, ll Qarabağ müharibəsindən sonra isə tariximizə şanlı zəfər kimi yazılan bu mövzu ədəbiyyatımızda da ən çox müraciət edilən mövzulardan birinə çevrilmişdir. Qarabağda baş verən hadisələrdən sonra, xüsusilə, müstəqillik dövründə bu mövzu ədəbiyyatda ayrıca bir mövzu kimi fərqlənməyə başlamışdır. Biz tam əminliklə deyə bilərik ki, istər poeziyada, istər nəsrdə, istərsə də dramaturgiyada bu mövzuda təqdirəlayiq əsərlər yazılıb. Demək olar ki, hər bir söz sənətkarı öz yaradıcılığında "Qarabağ" mövzusuna müraciət etmişdir. Əlbəttə, bu yazılan əsərlərin hər biri yüksək poetik dəyərə malik olmasa da, kifayət qədər yüksək qiymətləndirilə biləcək əsərlər də ərsəyə gəlmişdir.

Hər zaman baş verən hadisələri ilk növbədə poeziyada-kiçik həcmli lirik şeirlərdə və publisistik yazılarda əks etdirmək daha asan olduğu üçün Qarabağ mövzusu da daha çox lirik şeirlərdə və publisistik məqalələrdə öz əksini tapmışdır. Xüsusilə, müharibə dövründə ön cəbhədə döyüşən əsgərlərimizdə ruh yüksəkliyi yaratmaq, arxa cəbhədə xalqın onlara olan dəstəyini göstərməkdə lirik şeirlərin rolu böyük olmuşdur, bunu anlayan söz sənətkarlarımız da öz lirik şeir yaradıcılıqlarında bu mövzuya geniş yer vermişlər. Lirik şeirlərdə sənətkarların düşmənə nifrəti, daxili təlatümləri, hiss həyəcanları öz əksini tapırsa, epik şeirlərdə daha çox tarixi hadisələr və bu hadisələrdən doğan nəticələr təsvir olunmuşdur.

Epik şeir istər dünya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında ən çox istifadə olan janrlardan biridir. Hadisələrin təsvir olunmasında epik şeirin imkanları lirik şeirə nisbətən daha genişdir. Epik şeirin əsas xüsusiyyəti adi şeirdən fərqli olaraq burada müəyyən bir xalqın və ya bəşəriyyətin həyatındakı hər hansı bir böyük hadisəni təsvir etməsidir. Epik şeiri lirik şeirdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun həcmidir, epik şeirin həcmi daha böyük olur ki, bu həcm də müəllifin istəyindən deyil, təsvir etdiyi mövzudan və qarşısına qoyduğu məqsəddən asılıdır.

Tarixi hadisələr haqqında biz ən geniş məlumatları tarixi mənbələrlə yanaşı, ədəbi nümunələrdən alırıq. Qarabağın tarixi və mədəniyyəti, illərlə baş verən hadisələr haqqında biz ən ətraflı məlumatı bu mövzuda yazılmış əsərlərdən alırıq. Ədəbiyyatda Qarabağ mövzusu özündə bir çox məqamları birləşdirir.

Bu mövzu ədəbiyyatımıza tək 90-cı illərdəki hadisələrdən sonra daxil olmamışdır. 1747-ci ildə Pənahəli xan tərəfindən Qarabağ xanlığının əsası qoyulmuş, bundan sonra bir çox "Qarabağnamələr" yazılmışdır. Bu "Qarabağnamələr"də həm Qarabağın təbiətinin gözəlliklərinin təsviri, həm də siyasi-iqtisadi məsələlər öz əksini tapmışdır. Sonrakı dövrlərdə həm şifahi, həm də yazılı ədəbi nümunələrimizdə Qarabağın gözəlliyinin tərənnümü əsas mövzulardan olmuşdur. Bu müsbət əhval-ruhiyyə dolu şeirlərin ömrü o qədər də uzun olmur, 1805-cı ildə İbrahimxəlil xan və rus generalı Pavel Sisianov arasında imzalanan Kürəkçay müqaviləsinin şərtinə əsasən Qarabağ Rusiyanın tərkib hissəsinə çevrilir və bundan sonra Qarabağın qanlı-qadalı günləri başlayır. 1813-cü ildə imzalanan Gülüstan, 1828-ci ildə imzalanan Türkmənçay müqavilələri ilə Azərbaycan torpaqları bölünməyə davam edir.

Bu köçürülmələr nəticəsində əhalinin həm iqtisadi, həm də sosial vəziyyəti pisləşirdi. Bütün bu hadisələr ədəbiyyatda da öz əksini tapırdı. Artıq nikbin əhval-ruhiyyəli əsərlərin yerini nisgil, bədbin ruhlu əsərlər əvəz etdi. Bu bədbinlik özünü həm şifahi, həm də yazılı ədəbiyyatda özünü göstərirdi.

"Qarabağda talan var.

Zülfün üzü salan var.

Gedirsən, tez qayıt gəl,

Gözü yolda qalan var"[38]

Bu bədbinlik 44 günlük Zəfər yürüşümüzə qədər davam etmişdir və bundan sonra ədəbiyyatımızda Qarabağ mövzusu özlüyündə artıq kədər, nisgil deyil, qürur, sevinc hisslərini ehtiva edir.

Tarixən bizə məlumdur ki, dilbər guşələrimizdən olan Qarabağ dəfələrlə qəsbkarların yürüşünə məruz qalmışdır. Bu yürüşlərin ən dəhşətliləindən biri 1795, 1797-ci illərdə Ağaməhəmməd şah Qacarın Şuşaya yürüşləri olmuşdur. Bu yürüşlər haqqında biz ən geniş məlumatı tarixi mənbələrlə yanaşı, XVIII əsrdə yaşayıb-yaratmış Molla Pənah Vaqifin həyat və yaradıcılığı əsasında öyrənirik. M.P.Vaqifin "Bax" qəzəlində Qacarın xalqa zülm edərək tutduğu Şuşada elə həmin gecə öldürülməsi və Qacarın ordusununn geri çəkilməsi, ruzigarın öz işini görməsi ilə bağlı fikirlər yer alır.

Bu hadisələrlə bağlı müasir dövrümüzdə yazılan ən gözəl ən gözəl əsərlərdən biri Nüsrət Kəsəmənlinin "Yaddan çıxmaz Qarabağ" poemasıdır. Poemada Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim ağanın həyatının təsviri fonunda o dövrdə baş verən hadisələr əks olunmuşdur. Poemanı oxuyarkən Ağabəyim ağanın vətən həsrəti onun dilindən verilən bayatılarda əks etdirilir. Sanki Ağabəyim ağa Qarabağ torpaqlarından didərgin düşən, vətən həsrətilə yaşayan ilk insandır, sonrakı dövrdə Qarabağdan qaçqın düşənlər isə Ağabəyim ağanın taleyini yaşayır.

Poemada Şah Qacar obrazı qəddarlığı ilə seçilir, o, tutulan əsirlərin tikə-tikə doğranılmasından zövq alır, amma tökdüyü qanlar onu elə o gecə boğur, düşmən geri çəkilir. Bütün şəhər buna sevinsə də, İbrahimxəlil xan bilir ki, yeni gələn şah mütləq intiqam almaq üçün yenidən Şuşaya hücum edəcək və gücdən düşmüş xalq müqavimət göstərə bilməyəcək. Xan iki çıxış yolu düşünür ya bütün xanlıqlar bir olub döyüşməlidir, ya da qızı Ağabəyimi İran şahına kəniz verməlidir. Xan anlayır ki, digər xanlıqlar birləşməyi qəbul etməyəcək, hər biri yalnız özü üçün çalışacaq. Bu məsələ tək o dövrdə

deyil, sonrakı dövrlərdə də bizim ən böyük bəlamız olmuşdur. Yalnız öz mənafeyini düşünən insanlar hər zaman bizi irəli getməyə qoymamış, məğlubiyyətimizə səbəb olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı xalqımızın bir yumruq ətrafında birləşməsi qalibiyyətimizin əsas səbəblərindən biri idi.

Ağabəyim ağa isə vətəni, xalqı üçün özünü fəda edir, Fətəli şahla evlənməyi qəbul edir. Vətənində xan qızı olan Ağabəyim, İrana kəniz olaraq gedir. Kəniz olaraq getdiyi sarayda xanım olaraq yaşasa da, vətənindən uzaqda heç vaxt xoşbəxt ola bilmir, özünü İranda salınan "Vətən bağı"nda bitməyən Xarı bülüblə bənzədir.

"Vətən bağı" xəzan oldu,
İndi qəmdən oxu, bülbül,
Bu torpaqda nə mən bitdim,
Nə vəfalı "Xarı bülbül"!...[12,s 35]

Poemanı oxuduqca biz Ağabəyim ağanın vətən həsrətini duyub kədərlənirik, digər tərəfdən isə bir mövzu haqqında düşünürük. Görəsən İbrahim xan qızını İran sarayına kəniz göndərərkən həqiqətən vətənini, xalqınımı düşünürdü, yoxsa öz taxtı-tacınımı?... Bundan başqa biz XVIII-XIX əsrlər Qarabağ mühiti haqqında Qasım bəy Zakir, Xurşidbanı Natəvan, Mir Möhsün Nəvvab, Mir Mehdi Xəzani və başqalarının əsərlərindən öyrənirik.

Qarabağ mədəni mühitinin formalaşmasında təşkil olunan ədəbi məclislərin rolu çox böyük olmuşdur. Bu məclislərdə dövrün qabaqcıl insanları toplaşaraq incəsənətin müxtəlif sahələri ilə bağlı öz fikirlərini bölüşmüşlər. Bu mövzular içərisində poeziya xüsusi yer tutur, şairlər yazdıqları yeni şeirləri oxuyur, eyni zamandan əvvəlki dövrlərin dəyərli söz ustalarının əsərlərini təhlil edir, öz fikirlərini bildirirdilər. Bu ədəbi məclislərin ən fəal nümayəndələrindən biri də Mir Möhsün Nəvvab olmuşdur. O, təşkil olunan məclislərdə, deyilən şeirlər, onların təhlillərini, eyni zamanda şeirlər oxuyan şairlər haqqında qeydlər aparmış, beləliklə, "Təzkireyi-Nəvvab" əsəri meydana

çıxmşdır. Bu əsərdə təkcə məclislər haqqında deyil, eyni zamanda Qarabağ təbiətinin gözəlliyi, insanlarının qonaqpərvərliyi əks olunur.

"Təzkireyi-Nəvvab" əsərində toplanan şeirlərdə Qarabağın yerli əhalisinin səmimiliyi, qonaqpərvərliyi tərənnüm edilirsə, bu ərazilərdə sonradan məskunlaşan ermənilərin ikiüzlülüyü, əliəyriliyi tənqid olunur, tarixən oğru millət olduqları əks olunur. "Bu baxımdan şair Katibin "Ermənilərə həcv" şeiri maraqlıdır"[23,s13]

"Dedilər ki, gəlin bir yoldaş kimi,
Tapaq çaxır, basaq qızıl baş kimi
Ermənidən tutaq bir hamaş kimi,
Şərik olaq çaxıra qardaş kimi,
Mundn qeyri işin yoxdu səməri.
Anton adlı ermənini gördülər
Bağlarını yarılığa verdilər.
Bir gün gəlib çərövişə girdilər,
Tuluqlarda çaxıra az gördülər,
Qəbul etmədilər belə zərəri"[25,s.134-135]

Tarix boyu Qarabağ mövzusuna müraciət edilsə də, I Qarabağ müharibəsindən sonra bu mövzuya daha çox müraciət edilməyə başlanmışdır. 1980-ci illərin sonlarından başlayıb 1994-cü ilə qədəm edən I Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın 20%-i mənfur düşmənlərimiz tərəfindən işğal olunmuşdur. Yerli xalq öz yurd-yuvalarından didərgin düşmüş, ağır günlər yaşamışdır. Gözləri qarşısında zülmlər çəkən xalqının dərdinə söz sənətkarlarımız öz münasibətini əsərləri ilə bildirmiş, xalqının dərdinə bəzən ağı demiş, bəzən xalqı mübarizəyə səsləmiş, qələbəyə inamını əks etdirmişdir. Xalqımızın qələm sahibləri öz daxili təlatümlərini daha çox poeziyada əks etdirmişdir. Xüsusilə, müstəqillik dövrü şairlərimizin yaradıcılığından Qarabağ mövzusu qırmızı bir xətt kimi keçir. Belə sənətkarlarımıza Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Raz Ulutürk, Nəriman Həsənzadə, Nəbi Xəzri, Fikrət Qoca, Famil Mehdi,

Məmməd Aslan, Hüseyn Kürdoğlu, Cabir Novruz, Zəlimxan Yaqub, Cabir Novruz, Sabir Rüstəmxanlı, Vaqif Aslan, Ələmdar Quluzadə, Nurəngiz Günün, Ənvər Əhməd, Musa Ələkbərli, Firuzə Məmmədli, Nüsrət Kəsəmənli və.b-nı aid edə bilərik.

Hələ SSRİ dövründə-60-cı illərdə mənfur düşmənlərimiz torpaq iddiasına qalxan zamanlarda buna etirazını bildirənlərdən biri də Bəxtiyar Vahabzadə olmuşdur. O, torpaqdan pay olmaz deyə hayqırır, xalqı ayağa qalxmağa etiraz səsini ucaltmağa səsləyirdi. Belə şeirlərindən biri də “Torpaqdan pay olmaz” şeiridir. Şair bu şeirində keçmiş günləri yad edir, nankor düşmənə babalarımızın zamanında dost olduğunu xatırladır. Onu bir sual düşündürür illərlə “qardaş” deyən, bir yerdə çörək kəsdiyimiz bu varlıqlar nəyə görə indi bizimlə torpaq davasına çıxıblar?! Şair mənfur düşməni xəbərdar edir, torpaqlarımızı onlara xoşluqla verməyəcəyimizi, bu yolda son damla qanımıza qədər vuruşacağımızı düşmənin diqqətinə çatdırır.

Sovet dövründə torpaqlarımıza uzanan qara əlləri görən, bunun üçün həyəcan təbili çalan şairlərimizdən biri də Nəbi Xəzri idi. Onun “Çəkin Qarabağdan qara əlləri” şeiri nəşr olunan zaman böyük etirazlara səbəb olmuşdur. “Vaqifin ürəyi, Üzeyirin qəlbi” adlandırdığı Qarabağ torpaqlarından qara əllərini çəkməsi üçün düşməni xəbərdar edir, bircə qarış torpağın yadlara qismət olmasındansa özünün torpağa qarışmasını daha üstün tutduğunu vurğulayır.

80-ci illərin sonlarında hələ hadisələr yeni başlamışkən qələminə sarılan söz ustadlarımız öz yaradıcılıqlarında vətənpərvərlik, vətənə, torpağa sevgi mövzularına xüsusi yer verir, düşmənə nifrət dolu şeirlər yazırdılar. Belə şeirlərdən biri kimi Firuzə Məmmədlinin “Mənimlə” şeirini nümunə göstərə bilərik. Bu şeirdə öz havadarlarına güvənib bizimlə torpaq davasına çıxan düşmənə nifrət hissləri əks olunmuşdur.

1990-ci il 20 Yanvar hadisəsindən sonra dərdimizin üstünə yeni dərdlər əlavə olundu, başı bəlalı yurdumuzun dərdi bununla da bitmədi qanıyla-canıyla azadlıq əldə edən xalqımızdan sanki bu azadlığın intiqamınl aldılar. Mənfur qonşularımıza dəstək verərək xalqımıza göz dağı verməyə çalışdılar. Əzəli torpaqlarımız olan Qarabağı bizdən

ayırdılar, xalqımızı yurdlarından didərgin saldılar. Qələm sahibləri bu dərdə ağı deyib ağladı, günahkarları törədilən bu cinayətlərin cavabını verməyə çağırdı.

Zəlimxan Yaqub bu faciələrə səbəb olanlara qarğış dedi, ancaq bu qarğış tək düşmənə deyil, həm də içimizdə olan satqınlara, vəzifə üçün torpaqları satan, xalqının imdadına yetməyən alçaq xislətli insanlara idi. “Zəlimxan qarğışı” epik poemasında şairin ən çox qınaq obyektinə “düşmən qabağından qaçan kişilər” tuş gəlir, öz vətənlərində qəriblik yaşayan qaçqınların yaşadıqları həyat tərzi şairin ürəyini dağlayır.

“Allahsız ovçunun döndük ovuna,
Çətin bu ağrıdan qəlbim ovuna.
Aldandı alçağın qovhaqovuna,
“Düşmən qabağından qaçan kişilər””[31,s 234]

Təki cibi dolsun deyə Allahla hesablaşmayan, gözü yalnız öz cibində olan insanları gördükcə şairi dəhşət bürüyür, onlara qarğış deyir, Tanrıya öləndə belə bu torpaqda onlara məzar nəsib olmasın deyə dualar edir. Bununla da ürəyi sakitləşməyən sənətkar bu dəhşətlərin törədilməsində bütün insanlığı-hətta özünü də günahlandırır, vətən torpağını düşmən tapdağında qoyan, insanların bu acınacaqlı taleyi yaşamağına göz yuman bizləri bağışlamaması üçün Allaha üz tutur.

Bu qədər qan görüb, müsibət görüb,
Hələ də bir yola gəlməmişiksə,
Xalqın yanağını yandıran yaşı,
Yaylığa çevrilib silməmişiksə,
BİZİ BAĞIŞLAMA, EY QADİR ALLAH!!![31,s 239]

Zəlimxan Yaqub bu fikirlərini “Sizi qınamıram” epik poemasında da davam etdirir. Əsərin adı sanki məxsusi seçilib. “Sizi qınamıram” adlandırılan əsəri oxuduqca əslində əsərin tamamən qınaqlardan ibarət olduğunun şahidi oluruq. Əsəri maraqlı edən bir cəhət də əsərin təzadlardan ibarət olmasıdır. Sənətkar sanki insanları iki qütbə bölür qınadıqları və qınamadıqları. Bəs əsərdə kimlər, niyə qınanır? Elə ilk sətirlərdən böyük

bir millәti, xalqı bir oyuna qurban edәn, namusunu vәzifәyә, vara-dövlәtә satanların tәnqidi ilә rastlaşırıq. Şair Pәnahәli xandan, Cabbardan, Xandan, Xan qızı Natәvandan utanır, Yurdu dağılmış bu insanların yanında özünü xәcalәtli hesab edir, qәlәmi tullayıb özünә qәbir qazmağı düşünür.

Şair bizә Tәbrizi, Dәrbәndi, Göyçәni, Zәngәzuru, Mehrini ağılsızlığımız ucbatından necә itirdiyimizi xatırldır, Qarabağ torpaqlarını da itirmәklә tarixdә nanәcibliyi, nakişiliyi boynumuza aldığımızı dәrin bir kәdәr hissi ilә tәsvir edir. Şükürlәr olsun ki, biz bu gün artıq alnıaçıq, başıdik gәzә bilirik, çünki Ali Baş Komandan İlham Əliyevin başçılığı altında rәşadәtli ordumuz torpaqlarımızı düşmәn tapdağından azad etdi, biz öz torpaqlarımıza geri qayıtdıq.

Əsәrdә diqqәt çәkәn digәr bir mәqam şairin İbrahimxәlil xanı sanki ittiham etmәsidir. Şair arzulayır ki, kaş Şuşa bu gün ermәnilәr tәrәfindәn işğal olunmaqdansa, elә o vaxt dini bir olan Qacar-İran tәrәfindәn işğal olunaydı. Ancaq II Qarabağ müharibәsi zamanı baş verәn hadisәlәr isә bizi bu mövzu haqqında dәrindәn düşünmәyә vadar edir. Zәlimxan Yaqub әsәrini sonda bir xәbәrdarlıqla bitirir.

“Gözucu baxmayın sәtirlәrimә,
Dediyim zamanın hәqiqәtidi!
Şairin sәsini eşitmәyәn kәs,
Xalqın sәsini dә eşidә bilmәz!!!”[31,s109]

Qarabağ mövzusu yaradıcılığında xüsusi yer tutan söz sәnәtkarlarımızdan biri dә Nәriman Hәsәnadәdir. Onun 1997-ci ildә qәlәmә aldığı “Qarabağdan gәlәn var” epik-lirik poeması I Qarabağ müharibәsindәn sonra yaranmış sosial hәyatı әks etdirmәsi baxımından xüsusilә seçilir. Öz yurd-yuvalarından didәrgin düşәn, Vәtәn içindә qaçqınlıq yaşayan insanların yaşadıqları çәtinliklәr, üzlәşdiklәri әdalәtsizliklәr Qarabağın Tuğ kәndindәn qaçqın düşmüş Mәmmәd müәllim vә onun hәyat yoldaşı Sәyyarә xanımın simasında әks olunur.

Məmməd müəllim 40 il Tuğ kəndində dərs hissə müdiri, Səyyarə xanım isə direktor kimi fəaliyyət göstərmişdir. Öz yurdlarından qaçqın düşdükdən sonra isə Bakıda xəstəxanada Məmməd müəllim bağban, Səyyarə xanım isə xidmətçi kimi işləməyə başlayırlar. Ömürboyu çətinliklərlə üzləşən Məmməd müəllimin bağban işləyərkən də çətinliklər, amansızlıqlar onun yaxasından əl çəkmir. Yalnız öz mənafeyini düşünənlər bağa gələn suyu öz məhlələrinə, həyətlərinə çəkib aparır, sonra da bağbanı məzəmmət edərək onu işini düzgün görməməkdə günahlandırırlar. Əlbəttə, Məmməd müəllim də bilir ağacları sulamaq lazımdır, ancaq sosial mühit ona səsini çıxarmağa icazə vermir. Mənəviyyatı olmayan bu insanların münasibəti, ətrafında gördüyü eybəcərliklər Məmməd müəllimin qəlbini dərindən yaralayır. O, tək özünü yox, onun kimi didərgin düşmüş soydaşlarının dəhşətli həyatını düşünür, ancaq dərini açacaq, onun qəlbinin dərinliyindəki kədəri duyacaq insanlar olmadığından susur. Ürəyini yalnız şairə açıb danışır, çünki şairdən başqa heç kim onun sözlərinə əhəmiyyət vermir.

Şair söhbət zamanı bu qaçqın ellisini dözməyə səsləyir. Nəriman Həsənzadə əsərin bu hissəsində tək Məmməd müəllimlə yox, bütün qaçqınlarla danışır, onlara səslənir. Məmməd müəllimin simasında bütün qaçqınların sınmış könüllərinə məlhəm olmağa çalışır. O, cəmiyyətdə baş verən bütün faciələrə fəlsəfi məna verir, öz həyatında baş verənləri nümunə kimi göstərir. Var olan hər şeyləri əllərindən alınan bu insanlara mənəviyyatlarını və şəxsiyyətlərini qorumağı diləyir.

Əsərin ən maraq doğuran cəhətlərindən biri də burada cəmiyyətin hər üzünü real cizgilərlə əks etdirməsidir. Sanki əsərdə bu iki həyat müqayisə olunur. Bi tərəfə bir qarın çörək üçün gecə-gündüz çalışan qaçqın və məcburi köçkünlərin həyatı, digər tərəfdə də öz heyvanlarına belə yeməyi xarici ölkələrdən sifariş verən xanımların, insanların düşdükləri vəziyyətdən istifadə edərək günü-gündən varlanan mənəviyyatı dayaz insanların həyatı təsvir olunur. Bütün bu sosial ziddiyyətlər, insanlar arasına çəkilən maddi-mənəvi sədlər cəmiyyəti uçuruma aparırdı. Bu cəmiyyətin bir xilaskara ehtiyacı var idi. Heydər Əliyevin hakimiyyəti illərində bu problemlər həll olunmağa başladı,

cəmiyyətimiz məhv olmaqdan xilas oldu, insanlar arasında olan ziddiyyətlər, sərhədlər aradan qaldırıldı.

Nəriman Həsənzadənin "Qarabağdan gələn var" poeması Qarabağ mövzusunda yazılmış epik əsərlər arasında cəmiyyətdə olan sosial ziddiyyətləri əks etdirmək baxımından ən mükəmməl əsər kimi qiymətləndirilə bilər. Əsərdə müharibə dövründə və atəşkəsdən sonra insanların yaşadıqları ağrı-acılı həyatın incəlikləri real cizgilərlə rəsm olunmuşdur.

Görkəmli şairimiz Cabir Novruz da ömrü boyu Qarabağ dərdi ilə yaşayan şairlərimizdən olmuşdur. Şuşa dərdimiz, Şuşa nisgilimizdən bəhs edən ən gözəl əsərlərdən biri də məhz Cabir Novruzun "Şuşa yolu" epik poeamasıdır. Əsər əsasında eyniadlı film də çəkilmişdir. Əsər Şuşanın işğalından on il sonra qələmə alınmışdır, burada Cabir Novruzun on illik Şuşa həsrəti, ürək yanğıları əks olunur. Şuşasız yaşadığı üçün hər gün özünə nifrət yağdıran şair, yaşamağa, yazmağa haqqı olmadığını düşünür. "Ən əbədi həyat nəğmə"si adlandırdığ Şuşanı qeyrət, mərdlik rəmzi kimi qiymətləndirir və Şuşanı itirməklə qeyrətimizi, mərdliyimizi itirdiyimizi qeyd edir. Son nəfəsimizə qədər Şuşanın azadlığı üçün vuruşmadığımıza görə uşaqdan böyüyə, ölüdən diriyə hər kəsi günahkar hesab edir, vətəni, torpağı vəzifə, şan-şöhrət naminə satanları qınayır, bunu bütün xalq üçün ədəbi bir damğa hesab edir.

"Ta uşaqdan böyüyəcən günahkarıq,
Ta sonuncu nəfəsədək günahkarıq"[26, s5]

Cabir Novruz "Şuşa yolu" poemasında təkcə Qarabağ, Şuşa məsələsinə toxunmur, Şuşa dərdini Cənubi Azərbaycan-Təbriz dərdi ilə müqayisə edir. Şuşanı Təbrizə gedən yol kimi qiymətləndirir.

Poemada sənətkarın qorxuları da öz əksini tapır. Əlbəttə, poema yazılan illərdə həm hərbi, həm də iqtisadi cəhətdən bugünkü gücümüzə sahib deyildik. Şuşa yoluna nazrət edən, yönləri Bakıya, Gəncəyə tuşlanan rus, erməni toplarını görən sənətkarı

qorxu bürüyür. Bakı, Gəncə əlimizdən çıxsa artıq bir millət olaraq varlığımızın mümkünsüzlüyünü anlayır.

Əsərin ən maraqlı hissəsi Cabir Novruzun 1881-ci ilin yanvar ayında Şuşada Molla Pənah Vaqifin heykəlinin açılışını xatırlamasıdır. Xalqımızın Cıdır düzünə axışması, ümumilli lider Heydər Əliyevin ətrafında xalqın qürurla, sevinclə toplaşmasının təsvirini verməklə yanaşı, paxıl ermənilərin də yalandan üzdə gülüb ancaq içlərində yanıb-qovrulduqlarının təsvirini də verməyi də unutmur.

Ən böyük arzusu torpaqlarımızın yağı düşməndən geri alınması olan şairin təəssüf ki, ömrü bu arzusunun həyata keçdiyini görməyə yetmədi. Bütün çətinliklərə baxmayaraq o, heç vaxt qələbəyə inamını itirməmişdi, alnımızda olan ləkənin bir gün silinəcəyinə əmin idi. Bunu arzuladığı kimi öz əli edə bilməsə də, arzusunun həyata keçməsi ilə ruhunun şad olduğuna əminik.

Müasir dövrdə yaradılan və Qarabağ xatirələri ilə dolu olan əsərlərdən biri də İlham Qəhrəmanın "Yaddaş yolu" poemasıdır. Əsər proloqla başlayır, sonda epiloqla bitir. Proloq və epiloq arasında yeddi lirik şeir vardır ki, bunların hər birinin məzmunu onun adı ilə bağlıdır. Elə proloq hissədən sənətkarın vətən həsrətindən doğan kədəri hiss olunur. İlham Qəhrəman əsərdə özünün və nəvəsinin obrazını yaradır. Bu nəvə sanki onun içindəki ikinci-mühakimə edən, sorğulayan mənidir. Nəvəsi ondan niyə uzaqlara baxıb kövrəldiyini soruşsa da, o bu suala cavab verə bilmir, çünki verəcək cavabı yoxdur. Nəvəsinin bu sualı onu keçmişə-Laçında keçirdiyi uşaqlıq illərinə aparır. Bu sualdan sonra əsərin "Yaddaş", daha sonra isə demək olar əsərin ən təsirli hissəsi olan "Etiraf" lirik şeiri gəlir. "Yaddaş" hissəsində o, dağlar qoynunda qalan şəhərini xatırlayır, sonra "Etiraf" başlayır, mühakimə başlayır. Şair özünü və torpaqları geridə qoyanları gözükölgəli hesab edir, başını qaldırıb dik baxa bilmir, vətən qarşısında, tarix qarşısında hər kəsi günahkar sayır.

Onun ürəyini dağlayan başqa bir məsələ də var. Geridə qoyduqları torpaqları unudan insanlar... Bu insanları gördükcə onun dərdinin üstünə dərd gəlir. Bu insanlar oturduqları

yerlərdə rahat həyatlarını yaşayır, ata-baba torpaqlarını unudurlar. Belə insanları namusunu satmış insan kimi qiymətləndirir, çünki torpaq namusdan belə yuxarda dayanır.

Poemanın "İdilliya" hissəsində şair nəvəsi ilə birlikdə öz yurduna ziyarətə gedir. Atasının odun çinini, anasının sac qurub çörək bişirdiyi yerləri nəvəsinə göstərir. Atasının kərənti döyməsini, anasının cehiz nehrəsini, köz doldurub paltar ütülədikləri ütünü, anasının süd sağıb çəkdiyini, Novruz adətlərini, toy adətlərini xatırlayır Bu xatirələrin içindən geri qayıtmaq, yurdunda it uladığını görmək istəmir.

Əsərin epiloq hissəsində şair son ümidi Allaha müraciətdə görür. Allahdan yatmış vicdanları oyatmağı, bizi Moskvanın, Londonun, Parisin ümidinə qoymamağı, yenidən öz zirvələrimizə qayıtmağı diləyir.

İlham Qəhrəman xoşbəxt şairlərimizdəndir ki, o, sağlığında yurdunun azadlığını gördü. Artıq uşaqlığının keçdiyi, anasının sac asıb çörək bişirdiyi yerləri xəyalən deyil, həqiqətən gedib görəcək, artıq o gözəl yerlərdən uzaq qaldığı üçün kədər hisslərini yox, yenidən yurduna qayıtdığı üçün yaşadığı sevinc hisslərini təsvir və tərənnüm edən əsərlər yazıb-yaradacaq.

Ədəbiyyatda bir mövzu olaraq Qarabağ mövzusu ən çox müraciət edilən mövzulardan biri olmuşdur ki, bunun da bir çox səbəbləri var. Poeziya nümunələrində daha çox sənətkarların hiss və həyəcanları öz əksini tapmışdırsa, nəsr və dram əsərlərində baş verən hadisələrin təsviri və göstərilməsi ön planda olmuşdur. Bundan sonrakı dövrlərdə də əks etdirilən hisslər, təsvir edilən hadisələr dəyişilsə də, bu tendensiyanın davam edəcəyinə və Qarabağ mövzusu ən çox müraciət olunan mövzulardan olacağına əminik.

## 1.2 Epik şeirdə Xocalı mövzusu

Zaman keçdikcə Qarabağ mövzusu təsvirçilikdən daha çox mövzu və motivlərə şaxələnmiş, daha çox təhlilçi, təbliğ və təbiyəedici funksiyalarla yüklənməyə başlamışdır. 1992-ci ildə Ermənistan tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə azərbaycanlılara qarşı soyqırımı baş vermiş, Xocalı şəhəri işğal olunmuşdur. Düşmənin ilk hücum hədəflərindən birinin Xocalı olması heç də təsadüfi olmamışdır. Buranın coğrafi mövqeyi düşmənin öz mənfur planını həyata keçirmək üçün əlverişli idi, həm də o dövrlərdə Qarabağ ərazisində olan yeganə hava limanı məhz Xocalıda yerləşirdi, həm də Xocalı Azərbaycan mədəniyyətinin və tarixinin ənənələrini özündə qoruyub saxlayan tarixi yaşayış məskəni idi. Ermənilər əhalini burdan sürgün edib, tarixi abidələri məhv etməklə azərbayanlıların izlərini əzəli torpaqlarımıdan silmək, bu ərazilərin onların tarixi torpaqları olduğuna dünyanı inandırmaq məqsədi güdmüşdür.

İnsanlığa sığmayan bu vəhşilikləri hələ hadisələr yeni baş verəndə Çingiz Mustafayev, daha sonra isə Türkiyə mətbuatı başda olmaqla dünyanın bir çox qələm sahibləri tərəfindən qeydə alınsa da, illər boyu dünya bu ədalətsizliyə səssiz qalmışdır. Yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Xocalı faciəsi özünün siyasi-hüquqi qiymətini ala bilmiş, o dövrdən başlayaraq ardıcıl şəkildə bu vəhşiliyin dünyaya tanıdılması üçün dövlətimiz lazimi tədbirlər həyata keçirmiş, bunun nəticəsi olaraq bu gün bir çox dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsinin soyqırımı olması faktını tanımışlar.

XX əsrin ən böyük faciələrindən olan Xocalı faciəsindən artıq 30 il keçsə də, bu faciə xalqımızın qəlbində silinməz yara izləri qoymuşdur və heç vaxt yaddaşımızdan silinməyəcəkdir. Təbii ki, bu ümumxalq faciəsi ədəbiyyatda da öz yerini almış, söz sənətkarlarımız bu mövzuya tez-tez müraciət etmişlər. Bu mövzuda yazılan kifayət qədər şeirin, poemanın, dram əsərinin, hekayənin, romanın adını çəkə bilərik. Əlbəttə, yazılan hər bir əsər bədii cəhətdən mükəmməl olmasa da, faciənin dəhşətlərindən doğan ürək yanğılarını əks etdirir.

Xocalı dərdinə ən çox lirik şeirlərdə laylay deyib ağladılar. Bu cəhətdən Zəlimxan Yaqubun "Layla, Xocalı, layla" şeiri xüsusilə seçilir. Bayramı yasa dönən, hər tərəfi uçuruma çevrilən Xocalının dərdiylə ömrünü başa vuran şair Layla, Xocalım deyib fəryad edir, dünyanın, insanlığın, Allahın varlığını sorğulayır.

Fikrət Qoca "Hər gecə Xocalıda" şeirində hər gecə Xocalı dərdiylə qəlbinin necə yandığını, orada parçalanan körpələrə, öldürlən qocalara, qadınlara, gənclərə görə hər gecə göz yaşı tökdüyünü, üzünün ancaq Xocalının qisası alınanda güləcəyini oxucuya çatdırmışdır, Xocalı dərdiylə yaşayanların dərdinə ortaq olmuşdur.

Bundan başqa ədibin "İnqilab" adlı poeması vardır ki, bu poema xanlıqlar dövründən başlayaraq ermənilərin və onların dəstəkçiləri rusların xalqımızın başına gətirdikləri müsibətlər yazıya alınmışdır. Əsər "Yuxu" adlı başlıqla başlanılır. Bizə aydın deyil ki, şair hansı yuxudan danışır. Sonradan məlum olur ki, əsər niyə yuxu ilə başlayır. Bu yuxunu həm şairin gördüyü həqiqi mənada, həm də Sisianovun o zamanlar Bakını işğal etməklə bağlı olan yuxusu kimi dəyərləndirə bilərik. Hadisələr XIX əsrin əvvəllərində Bakı xanlığının qala qapıları qarşısında cərəyan edir. General qala qapılarının açarlarını təhvil almaq üçün gəlmişdir, lakin hadisələr gözlədiyi kimi cərəyan etmir, onun çiyinləri üstündə gələn başı yerdə diyirlənərək geri qayıdır, amma şair bir ritorik sual qoyur, həqiqətənmi Sisianovun başı üstündə gəlmişdi, əlbəttə, yox. Axı başı üstündə olan insan nəyə görə başqalarının torpağını işğal etmək istəsin. Yazıçı Sisianovun simasında başqasının torpağına göz dikənlərin başına nə gələcəyini bədii şəkildə dünyaya çatdırır.

Əsəri oxuyarkən oxucu sanki tarixlərarası səyahət edir, ancaq bu səyahət elə bir səyahətdir ki, əsrlər dəyişsə belə əsəri oxuyan hadisələrin bir-biri ilə olan əlaqəsini anlamaqda çətinlik çəkmir. XIX əsrdə Bakının qala qapılarını ala bilməyən Sisianov kimilər XX əsrdə öz əlaltıları olan ermənilərdən istifadə edirlər. Poemanın ikinci hissəsi də məhz "Mart soyqırımı" adlanması da bununla bağlıdır. Bakının qala qapılarını açmaq üçün bu dəfə ermənilər əl-ayağa düşür. Onlar bunu öz xislətlərində olan xəyanət və

ikiüzlülüklə etməyə çalışırlar. Düşmənin alçaq xarakteri bu hissədə elə incəliklərlə yazılır ki, insanda ikrah hissi yaranmaya bilmir.

Qonşu olub eyni süfrədə çörək kəsən bu insanların gözünü qan bürümüşdür. Qonşusu Mahmud kişini səsləyən Vartan onlara kömək edəcəklərini deyir. Mahmud kişi buna inanır, ona qapı açır, ancaq bilmir ki, xislətlərində xəyanət olan bu insanlara güvənmək olmaz. Tarix boyu xalqımızın başına gələn bütün bəlaların səbəblərindən biri də elə budur. İnsanlarımız keçmişi unudur, düşməni bağışlayır, onlara inanır. Düşmən də bundan istifadə edir. Qonşusuna inanıb qapını açan Mahmud kişi ailəsinin faciəsinə səbəb olur. O, nə qədər yalvarsa da, oğlunu da öldürür, onun başını və anası Yaxşının qızıl dişlərini arvadı Anuşa hədiyyə aparacağını deyir, çünki çoxdandır Anuş bu dişləri istəmişdir. Bu misralardan məlum olur ki, onlar illərdir qonşularının üzlərinə gülür, ancaq ürəklərində bu dəhşətli qətliamın xəyalı ilə yaşayırmışlar.

Nüsrət Kəsəmənli "Xocalı" şeirində hadisələri elə detallarına qədər qələmə alır ki, hər misrasında insanın ürəyində təlatümlər daha da artır, hər bir hadisə oxucunun gözləri önündə canlanır, insanı vahiməyə bürüyür.

Xocalı faciəsini tarixin qanlı yarası adlandıran Əziz Musanın "Qanlı Yaddaş" şeirində bütün dünyaya bu millətin günahının nə olduğu və tökülən qanların qisasının nə vaxt alınacağı ilə bağlı sualları əks olunmuşdur.

Elbariz Məmmədli yaradıcılığında Xocalı mövzusu xüsusi yer tutur. Onun "Sizi savaşa çağırıram" şeirlər kitabında Xocalı ilə bağlı bir çox şeirlər yer alır. Bu şeirlər içərisində insana ən çox təsir edənlərdən biri "Xocalı körpələri" şeiridir.  Bir dəstə çiçək adlandırılan bu körpələr ölümün varlığından xəbərsiz səs-səsə verib oynayırlar, ancaq birdən düçmənin silahından çıxan işıqlar bu körpələri qanlı bayrağa bürüdü, bir daha heç kəs bu körpələrin şən səsini eşitmədi.

Xocalı faciəsinin ağrılarını, acılarını özündə dərindən əks etdirən ən dəyərli əsərlərdən biri Ələmdar Quluzadənin "Şəhid  şəhər" poemasıdır. Poema təxmini 1500-ə yaxın misradan ibarətdir.  Şəhid şəhər olan Xocalının fəryadını əks etdirən poemanı

oxuduqca tək həmin gecə baş verənləri deyil, ondan əvvəl Xocalıda nələrin olduğunu, insanların çarəsizliyini ürək ağrısı ilə oxuyuruq. Ələmdar Quluzadə bu faciənin köklərini axtarır, səbəbkarları ittiham edir.

Ələmdar Quluzadə özü Xocalıda doğulmuş, ömrünün gənclik illərini burada yaşamışdır. Baş verən hadisələrin canlı şahidi olmuşdur, buna görə də təsvir etdiyi hadisələr o qədər təbiidir ki, insanın ruhuna toxunur. Poemanın başlanğıcından sonuna qədər Qarabağda baş verən hadisələr detalları ilə təsvir olunmuşdur. Bu hadisələrin üstündən 30 ilə yaxın bir müddət keçməsinə baxmayaraq oxucu poema vasitəsilə ən incə detallarına qədər hadisələrlə tanış olmaq imkanı qazanır.

Onun atası Allahverdi kişi də düşmən tərəfindən həmin gecə vəhşicəsinə öldürülmüşdür. Televizyada hər il Xocalı dəhşətlərini göstərəndə orada güllələnmiş bir qocanın meyitini görürük, həmin qoca Ələmdar Quluzadənin atası Allahverdi kişidir. Bu əsəri yazarkən şairin hər misrada yenidən o günləri xatırladığını, yenidən o əzablara düçar olduğunu düşündükcə insanı dəhşət bürüyür.

Əsər Nəriman Həsənzadənin "Gül var,Xocalıdan sonra açılmır..." adlı önsözü ilə başlayır. Müəllif sözlərindən sonra poemanın müəyyən başlıqlardan ibarət olan hissələri gəlir. "Eşidilməyən haray" adlı başlıqda verilən hissədə Xocalı faciəsi baş verməmişdən əvvəlki günlərin təsviri verilir. İnsanların necə fəryad edib yuxarılardan kömək istəkilərini, ancaq vəzifədən yapışanların onların səsinə-səs vermədiyini ürək ağrısı və öfkəylə qələmə alır. O, Vətəni, başçını oyanmağa səsləyir, qara bir yelin Xocalının üstünə gəldiyini, tariximizə qara ləkənin düşəcəyini təşvişlə qeyd edir, ancaq nə onun, nə də telefonda fəryad edib kömək istəyən qızın səsini eşidən olur. Bu qıza sadəcə səbir edib gözləmək tapşırılır.

Gülşən adlı bu qız nə qədər imdat deyib kömək istəsə də onu arxayın salırlar, qüvvəmizin olduğuna inandırmağa çalışırlar. Güllə yağışının altında olan bu qız bu sözlərə necə inansın axı, onun tək ümidi qadınlar, uşaqlar və qocalar üçün helikopterin göndərilməsidir amma bu ümidlər boş çıxır. Bunun tək səbəbini isə şair xəyanətdə,

dünyanın ən böyük günahı olan Vətənə xəyanətdə görür. Xalqa ümid verib lazım olarsa, öz canlarından keçməyə hazır olduqlarını deyənlər o gün yox oldular,qarın içində meşələrdə fəryad edib canlarını qutarmağa çalışanların fəryadını duymamaq üçün isti yorğanlarını başlarına çəkdilər. Xalq onlara inandı, hökumətimizin mütləq bir planı var dedilər amma hökumət xalqın bu inamını doğrultmadı, onları çarəsiz şəkildə odun, alovun içində qoydular.

Can verməkdə olan Sovet ordusu 20 Yanvarda əliyalın insanları tankların altında əzib məhv etməklə öz odlu qəzəblərini söndürə bilmədilər, "Böyük Ermənistan" arzusu ilə yaşayan şöhrətpərəst ermənilərdən son vasitə kimi istifadə edərək əsrin faciəsi olan Xocalı faciəsini törətdilər. Özlərinə umac oymağı bacarmayan ermənilər Moskvanın dəstəyi və bizim çörəyimizlə boy atan 366-cı motoatıcı alayın iştirakı ilə insanlığa sığmayacaq bu əməli törətdilər, amma ermənilər düşünmədilər ki, gün gələcək arxalandıqları bu qüvvələr öz planlarını həyata keçirdikdən sonra yox olacaqlar, o zaman haqq öz yerini tapacaq, onlar törətdikləri bu dəhşətlərin cavabını alacaqlar. Şair "366..." başlıqlı hissədə bu alaya daxil olanların iç üzünü açır onları qaranlığa bənzədir, bu qaranlığın bir gecədə xalqın üstünə çökərək onları məhv etdiyini təsvir edir.

Əsərdə Xocalı dəhşətlərinin dünyaya tanıdılmasında mühüm rol oynayan Çingiz Mustafayevin xüsusi obrazı yaradılmışdır. O, Çingiz Mustafayevi o gün qətlə yetirilənlərin cəsədlərinin qoruyucusu adlandırır. Ölümün qucağına atılaraq bu dəhşətlərə səssiz qalmayan, illərdi heç bir nazirin dilini gətirmədiyi sözləri məhz Çingiz Mustafayev göz yaşları içində hayqırdı, bu cinayətlərin tarixin yaddaşında yox olub getməsinə icazə vermədi. O, vətənə vətəndaşlıq yox oğulluq borcunu yerinə yetirdi.

Ələmdar Quluzadə Xocalı faciəsini keçən əsrin ən dəhşətli faciələri olan Xatın və Xirosima faciələri ilə müqayisə edir, onları eyni səviyyəli faciələr kimi qiymətləndirir.Bu faciələrin baş verməsində zəmanəni günahlandırır.

Ələmdar Quluzadə yaradıcılığı boyunca Xocalı dərdini yazıya almaqdan heç vaxt əl götürməmişdir. Epik əsərlərlə yanaşı lirik şeirlərdə də öz subyektiv fikirlərini və

hisslərini bildirmişdir. Onun “Gözlə, Xocalı, gözlə!” şeiri bu şeirlər içərisində ən çox diqqət çəkənlərdən biridir. Bu beş bəndlik şeir parçasında o, Xocalının insan kimi obrazını yaratmış, onu səbrli olmağa çağırmış, bir gün geri qayıdacağımıza dərin inam hisslərini ifadə etmişdir.

Bu inamla yanaşı o zamanlar ədibi narahat edən məsələlər də qeyd olunur, insanların hərəsi birtəhər öz dərdini çəkdiyini, dildə qisas desələr də, əməldə birləşə bilməməkləri onu narahat edir. Bu şeir yazıya alınandan sonra xalqımız sübut etdi ki, bu narahatlıqlar üçün səbəb yox imiş, lazımi vaxtda bir yumruq olmağı xalq olaraq ən layiqli şəkildə yerinə yetirirmişik.

Xocalı faciəsi haqqında yazılan ən yaxşı epik şeirlərdən biri Zəlimxan Yaqubun "O qızın göz yaşları" poemasıdır. Bu poemanın əsasında 21 yaşlı Xəzangülün uşaq vaxtı gözləri qarşısında ailəsinin başına gələnləri Xocalı faciəsinin 13-cü ildönümü ilə əlaqədar keçirilən anım mərasimində danışması dayanır.

Xəzangül başına gələnləri danışdıqca insan dəhşətə gəlir, dinləyənləri yalnız bir sual maraqlandırır həqiqətənmi bu vəhşilikləri “insan” adı daşıyanlar törətmişlər?! Şair bu sualın cavabını belə verir:

“İnsanlıqdan uzaqmış,
İnsan qanı tökənlər.
Əldən dırnaq çıxarıb,
Ağızdan diş sökənlər”[30,s8]

Əsər boyu müəllif ermənilərin törətdikləri vəhşilikləri oxucuya çatdırır, dünyanın bu faciəyə göz yummasına öz etirazını bildirir. Bu faciədən xalqın hələ də özünə gəlmədiyini, xəcalət hissindən pərt şəkildə yaşadığını, bu xəcalətdən xilas olmaq üçün vuruşmağın, şəhid olmağın şərt olduğuhnu deyir.

Xəzangülün gözü qarşısında atası Təvəkkülün ağaca bağlanaraq yandırılmasını şair təkcə Təvəkkülün yanmağı kimi deyil, bütün Qarabağın yanmağı kimi dəyərləndirir.

Bütün bu faciələrə baxmayaraq şair ümidsizliyə qapılmır “Mən qalxanda məndən əvvəl gözümdəki yaş ayağa qalxacaq” deyərək bir gün mütləq ayağa qalxacağımıza, öz torpaqlaeımıza geri qayıdacağımıza inamını bildirir. “Qarabağ erməni torpağıdır” demək yerinə diri-diri yanmağı seçən Təvəkkül kimi qəhrəman oğulların bu inamı doğruldacağına inanır. II Qarabağ müharibəsində Azərbaycan oğulları bu inamı doğrultdu, Xəzangüllərin intiqamını aldıq və öz torpaqlarımıza geri qayıtdıq.

Zəlimxan Yaqub yaradıcılığının əsas hissəsini təşkil edən Qarabağ mövzusunda yazdığı bütün əsərlərində Xocalı dəhşətlərinin və ondan doğan ürək ağrılarının təsvirinə xüsusi yer verir. Belə əsərlərindən biri də “Sizi qınamıram” epik poemasıdır. Şair əsərə xocalıların adı ilə başlayır, bu faciəni millətin dağ boyda fəlakəti adlandırır, bu fəlakətə göz yumanları qınayır.

Əsər Xocalıda törədilən dəhşətlərin təsviri ilə başlayır. Müəllif dünyaya “SOS” deyə səslənir, amma səsinə səs verən yoxdur. Bu dəhşətlərə Çingizin kamerasından baxan sənətkar insanların belə sürü ilə vəhşiləşməsindən dəhşətə gəlir, bu gecə törədilənlərdən ayın, ulduzların belə utanıb pörtdüyünü, ancaq düşmənin axan qanları ayaqlayıb əməllərindən utanmadığını göstərir.

Əsər əsasən Xocalı faciəsinə həsr olunsa da, mənfur düşmənlərimizin bundan əvvəlki zamanlarda törətdikləri dəhşətləri, 1905-ci ildə necə buynuzlarının qınından çıxıb daha sonra 1918-ci ildə törətdikləri qırğınları, 1989-cu ildə əhalinin öz yurd yuvalarından necə didərgin düşdüyünü, 1990-cı ildə mənfur düşmənin havadarları tərəfindən xalqın tanklar altında necə məhv edildiyini, ancaq bu terrora dünyanın səssiz qaldığını ürək ağrısıyla təsvir edir, xalqımızı nə BMT-yə, nə ATƏT-ə, ATƏM-ə ümid etməyə, yalnız öz gücünə inanmağa çağırır.

Xocalı soyqırımının qurbanlarına sözlə qoyulan ən dəyərli abidələrdən biri də Nurəngiz Gününün “Xocalı simfoniyası” poemasıdır. Bu poema əsasında eyniadlı film də çəkilmişdir. Poema Rüzgara müraciətlə başlayır, Rüzgar sanki bir obraza çevrilmişdir müəllif onunla söhbət edir, dərdini onunla bölür. Bu faciədə ölənlərin ruhunun təhqir

olunduğunu düşünən müəllif əsərin girişi və sonunda Allahdan onlara rahatlıq diləyir. Əsərdəki şairə-ana obrazı diri ölülərin xor oxuyaraq səslərini dünyaya çatdırmaq istədiyini, amma nə insanların, nə də rüzgarın bu səsi eşidə bildiyini, yalnız ananın bu "Əsrin simfoniyası"nı duya bildiyini vurğulayır.

Allahın yaratdığı insanı bir gecədə məhv edən, ancaq özünü dünyada "yazıq erməni" adı ilə tanıdan düşmənlərin törətdiyi faciəni Xirosim, Xatın faciəsindən daha dəhşətli hesab edən müəllif düşmənə lənətlər yağdırır, insanlardan bir səs çıxmadığını görüb müqəddəslərə səslənir, onlardan imdat diləyir.

"O! Məryəm Anaa! Müqəddəs!..
Bəlkə, Sən cavab verəsən...
Nədir bu?"[5, s8]

Poemada yurd-yuvasından ayrı düşən insanlarla yanaşı,düşmən tapdağında qalmış Xocalının da faciəsi əks etdirilmiş, bağça-bağında uşaqların oynamadığı, torpaqlar yetim uşağa bənzədilmişdir.

Xocalı faciəsi barəsində yazılan mükəmməl əsər kimi qiymətləndirilən bu əsəri oxuduqca insan elə düşünür ki, sanki o gecə baş verənləri gözü ilə görür, yaşayır. Əsər ingilis və rus dillərinə də tərcümə olunmuşdur, bununla müəllif bu terrora göz yuman dünyaya haqq səsini duyurmağa çalışmışdır.

Poemanın ilk səhifələrindən şairin bu qan rəngində olan dərdin əlində çarəsiz qaldığını görürük. Bu elə bir dərddir ki, nə ağlaya bilirsən, nə yadından çıxara bilirsən.İnsan hara getsə, bu dərd də ürəyində onunla gedir, çünki bu qan Xocalıdan başlayaraq bütün dünyanın üzərinə axır. İllər keçir, ancaq bu qan axmaqda davam edir, düşmənin ayağı Xocalı yurdundan kəsilənə, dünyada bu faciəyə lazimi siyasi-hüquqi qiymət verilməyənə qədər də bu qan dünyanın üzərinə axmağa davam edəcəkdir.

Şairi hiddətləndirən məsələlərdən biri də özlərini hər zaman dost göstərib Vətənimizin qara qanı olan neftinə sahib çıxanların xalqın tökülən qanlarını

görməzlikdən gəlməsidir. Bütün bunlara baxmayaraq Ə.Əsgəroğlu bir gün Xocalının qisasının alınacağına ümidini itirmir.

O gecə ağ qarın üstünə neçə-neçə körpənin qanı töküldü. Onlar qönçəykən soyuq vurub solan güllər kimi qarın altında qaldılar, bir göz qırpımında böyüdülər, bu qönçə qızılgüllər hələ açılmamış qançiçəyinə çevrildilər.

Əsərin adı elə təəssürat yarada bilər ki, bu əsəri Ədalət Əsgəroğlu xalqın faciəsinə mərsiyə deyib göz yaşı tökmək üçün yazılıb amma belə deyil. Göz yaşı töküb kimlərdənsə kömək gözləməyin mənasız olduğunu anlayan şair yaddaşımızı təzələyir, insanları tarixi yaddaşlarını unutmamağa, ayağa qalxmağa, düşmənə qarşı mübarizə aparmağa səsləyir.

Ürəyindən keçənləri yazıya alan şair bu əsəri oxuyan hər bir vətən övladını o gecəyə aparmaqla onların ürəyində qisas atəşi yandırmaq, cinayətkar ermənilərdən tək Xocalının deyil, tarix boyu törətdikləri bütün cinayətlərin intiqamını almağa səsləyir. Çünki bu cinayətkarlar öz cinayətlərinə görə ittiham olunmadıqca qan axmağa, yer və göy qana boyanmağa davam edəcək.

Ədalət Əsgəroğlu yaradıcılığı "Dərdimiz qan rəngi" poemasından beş il sonra yenidən Xocalı faciəsi haqqında "Xocam Xocalı" poemasını yazdı. Xocalı haqqında yazılan əsərlər, əsasən, bu faciəni ürək ağrısıyla təsvir edərək, onun dəhşətlərini əks etdirməyə çalışırlar, amma Ədalət Əsgəroğlu bu mövzuya başqa aspektdən yanaşaraq Xocalı faciəsinin obrazını yaratmışdır. Xocalını əsərdə insanlara yol göstərən Xoca obrazında təsvir etmişdir, amma insanlara yol göstərən Xocanın əli-qolu bağlanmışdır, işğal olunmuşur, o artıq insanlara yol göstərə bilmir.

Şair illərdir həsrətini yaşadığı, amma gedə bilmədiyi bu torpaqlara xəyalən səfər etmək istəyir, amma bütün dünyanı dolaşsa da, Xocalıya yetişə bilmir. Dünyanın o biri ucuna Nyu-Yorka, Parisə gedib çıxan şair nə qədər ümid etsə də, məsafəcə yaxın olan, ancaq aramıza düşmən səddi çəkilən öz doğma Xocalımıza gedə bilmir.

"Hamıya, hamıya yetişə bildim,

Yetişə bilmədim sənə, Xocalı"[ 3 ,s21]

Təəssüf ki, bu əsərin yazılmasından on il keçməsinə baxmayaraq biz hələ də Xocalıya səyahət edə bilmirik. Çünki Xocalıdan hələ də düşmənin ayağı kəsilməmiş, Xocalı hələ də işğaldan tam azad olunmamışdır. Əsərdə Ədalət Əsgəroğlu Xocalının necə azad olunacağı sualına cavab axtarır. Nəticədə bu suala cavab verən şair bunun üçün əvvəlcə ölkənin insanlarının azad olmağı gərəkdiyini vurğulayır. Əgər insanlar ruhən azad deyillərsə, onda Xocalını da işğaldan azad edə bilməyəcəklər. Əvvəlcə ölkənin elm adamları, dövlət adamları-bir sözlə, xalqı azad düşüncədə yaşamalı, mütilikdən uzaq olmalıdır

Xocalıya səyahət edə bilməyən sənətkar xəyali səyahətini XX əsrin ən böyük faciələri olan Xatın və Holosokota gedərək tamamlayır, bununla o sanki mənəvi azadlıq qazanır, çünki bu faciələrin hər biri bəşəri faciələrdir və bütün insanlığa qarşı törədilmişdir.

Xocalı dəhşətlərini bütün detalları ilə təsvir edən ən dəyərli epik əsərlərdən biri də Asim Yadigarın"Qisas qiyamətə qalmaz" poemasıdır. Poema "Böyük Ermənistan" layihəsinin memarlarından olan, Qarabağda, xüsusilə, Xocalıda törədilən dəhşətlərin, eyni zamanda Bakı metropolitenində törədilən terrorun sifarişçisi, erməni terrorunun ideoloqlarından olan Zori Balayana müraciətlə yazılsa da, Zori Balayanın simasında bütün erməni terrorçularının vəhşiliklərini təsvir etmişdir. Bu vəhşilikləri oxuduqca insanın damarında qanı donur. Türkün düşməni adlandırdığı Zori Balayanı ittiham edən Asim Yadigar bunun üçün faktlar gətirir, özünü yazıçı adlandıran amma insanlıqdan xəbəri olmayan bu varlığın əsərlərindən nümunələr gətirir. Bütün dünyanı bu vəhşilikləri yaxından izləməyə dəvət edir.

"Xocalı faciəsi,
Xocalı soyqırımı.
Bu qanlı cinayəti,
Bilsin, eşitsin hamı"[3,35]

O gecə yerin, göyün belə fəryad deyib ağladığı əzablara, işgəncələrə erməni vandallarının sevinclə baxdığı əsərdə o qədər ustalıqla təsvir edilmişdir ki, oxucu bu misraları oxuduqca içindəki nifrət hisslərini gizlədə bilmir.

Həmin müdhiş gecədə erməni Xaçaturla birlikdə başları kəsilmiş, gözləri çıxarılmış meyitlərin üstündən keçərək evlərə girirlər, burada divara mismarlanmış on üç yaşlı körpəni görən bu quldurlar həmin mənzərədən zövq alırlar, bununla da türklərə olan nifrətləri soyumur, zərərsiz körpənin başının, qarnının dərisini soyurlar, anasının kəsilmiş döşünü əmzik deyə uşağın ağzına verirlər. Bütün bu dəhşətli işkəncələrə baxmayaraq şərəfli türk oğlu gücünün yetdiyi qədər dayanır, həkim olan bu qatili bu dözümlülük dəhşətə gətirir, and içdiyi hipokrat andına belə şübhə edir. Bununla da ürəyi soymayan vəhşilər uşağı doğrayaraq itlərə atırlar və bunu böyük sevinc hissi ilə seyr edirlər. Bütün bunları öz əsərində qeyd edən Zori Balayan sonradan bu əsərin ona məxsus olmadığını desə də, bütün bu fəlakətləri törədənlərdən biri olduğunu inkar edə bilmir. Şair bu vəhşilərə xəbərdarlıq edir, türk oğlunun bu qədər aciz olmadığını, qisasın qiyamətə qalmayacağını, bir gün mütləq bunun əvəzini görəcəklərini, türklərin bunu heç vaxt unutmayacağını xatırladır.

Kişi kimi üzə çıxmağı bacarmayan, gizlənməyə siçan deşiyi axtaran bu insanlıqdan kənar varlığa Ədalət Əsgəroğlu sonda arvad tumanı geyinib, üzünə ənlik, kirşan çəkib bundan sonra həyatını belə davam etdirməyi məsləhət görür, çünki kişi kimi yaşamağı bacarmayanlar dönüb arvad olmağa layiqdirlər, o zaman onların havadarları daha çox olar və onlar əsl layiqli peşələrini tapmış olacaqlar.

Üstündən əsrlər keçsə də xalqımıza qarşı törədilən bu soyqırımı yaddaşımızdan silinməyəcək, ədəbiyyatımızda da bir mövzu olaraq daim müraciət ediləcəkdir. O günün o qədər də uzaqda olmadığına əmin olan, Şuşaya, Laçına, Zəngilana və digər torpaqlarımıza qayıtdığımız kimi Xocalıya da qayıdacağımıza inanan hər bir söz ustası “Biz qayıtdıq Xocalı” mövzusunda yüksək səviyyəli sənət əsərləri yaratmaq həvəsi ilə yaşayır.

# II FƏSIL
# QARABAĞ MÖVZUSU XALQIN MİLLİ LƏYAQƏT PROBLEMİ KİMİ
## 2.1 Şəhidlik mövzusu və onun epik şeirdə təşəkkül tarixi

Ədəbiyyatımızda ən çox müraciət olunan mövzulardan biri də şəhidlik mövzusudur. İstər tarix boyu, istərsə də son dövrlərdə yaşanan hadisələr bu mövzunu Azərbaycan poeziyası, xüsusilə, Müstəqillik Dövrü Azərbaycan poeziyası üçün səciyyəvi bir mövzuya çevirmişdir. Çünki şəhidlik anlayışı özündə vətənpərvərlik, fədakarlıq, humanizm, qəhrəmanlıq, cəsurluq və s. bu kimi yüksək xüsusiyyətləri özündə birləşdirir. Şəhidlik həm də vicdan, qeyrət, namus, ən başlıcası isə iman simvolu olmaqla insan mənəviyyatının məqam və kateqoriyasını müəyyənləşdirən bir keyfiyyətdir. Çünki iman olan qəlbdə bütün ali keyfiyyətlər yer tuta bilir.

“Peyğəmbərimiz (s.a.s) şəhidlər haqda belə deyir: “Şəhid cənnətdir, Allah qatında xeyirli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhid olmaq üçün can atarlar””[55]

Bədii söz sənətinin ən mükəmməl ədəbi nümunəsi olan “Kitabi-Dədə-Qorqud” dastanında da biz bu ali məram olan şəhidliyin bədii inikasına rast gəlirik. Məsələn, “Qazan xanın evinin yağmalandığı” boyda kafirlərlə savaşda beş yüz oğuz igidinin şəhid olması hadisəsi söylədiklərimizə nümunə ola bilər.

“Bizim ümumi qənaətimizə görə, şəhidlik milli şüur tariximizdə mənahadisəsi, semantik dəyər, düşüncə konsepti kimi dörd mərhələdən keçmişdir:

1. Mifik düşüncə mərhələsi;
2. Folklor düşüncəsi mərhələsi;
3. İslami düşüncə mərhələsi.
4. Müasir milli düşüncə mərhələsi” [22, s31]

**Mifik düşüncə mərhələsi:**Bildiyimiz kimi mifik düşüncədə ölüb-dirilmə mərhələsi mühüm əhəmiyyət kəsb edir. Ölüb-dirilmə mifik düşüncəsi yeni yaranışın

başlanğıcı kimi simvolizə edilir ki, şəhid olanlar ölmür fikri də məhz bu düşüncəyə dayanır.

**Folklor düşüncə mərhələsi:** Şəhidliyin folklor mərhələsi mifik düşüncə mərhələsinin davamıdır. Şəhidliyin müasir semantik mənası bu mərhələki mənası ilə demək olar ki, eynilik təşkil edir. Məsələn. "Dədə Qorqud" dastanında igidlər kafirlərlə mübarizədə şəhid olurlar.

**İslami düşüncə mərhələsi:** VII əsrdən etibarən xalqımız islam dinini qəbul etmişdir ki, bundan sonra şəhidliyin mifik və folklor mənası islami mənası ilə birləşmişdir. Şəhidliyin bu üç mərhələdəki mənaları birləşərək sonuncu mərhələni formalaşdırmışdır.

**Müasir milli düşüncə mərhələsi:** Bu mərhələ şəhidliyin bütün üstün xüsusiyyətlərini özündə birləşdirir ki, bu da daha çox milli-mənəvi səciyyə daşıyır.

"Şəhidlik mövzusunda yazılan şeirlərdə, poemalarda iki motiv daha çox diqqəti cəlb edir və qeyd edək ki, bu iki motiv həmin mövzuya münasibətin iki aspektini təşkil edir. Hər iki mptiv 2000-ci illərə qədər paralel şəkildə davam etmişdir. Birinci motiv: ağı, elegiya, matəm motividir. İkincisi isə şəhidliyin fəlsəfi estetik dərki və qəhrəmanlıq səviyyəsində təqdimidir. Bu iki motivin bəzən bir şeirdə, ya da poemada çulğalaşdığını, vəhdət təşkil etdiyini də görmək mümkündür" [14,s.68]

Şəhidlik mövzusunun ədəbiyyatımızda geniş yayılması əsasən qanlı 20 Yanvar hadisələri ilə bağlı olmuşdur. Bu qanlı faciə və ondan sonra baş verən Qarabağ hadisələri söz ustalarımızı öz yaradıcılıqlarında bu mövzuya xüsusi yer verməyə təşviq etdi. Məhz bununla bağlı olaraq biz şəhidlərə həsr olunan əsərləri 20 Yanvar şəhidlərinə və Qarabağ şəhidlərinə aid olan əsərlər olaraq iki yerə ayıra bilərik. Xronologiya ilə baxdıqda isə məlum olur ki, heç də hadisələrin tarixi ilə əlaqəli olaraq şəhidlər anılmamış, qəlbimizdə daim yaşayan şəhidlər hər bir əsərdə demək olar ki, vəhdətli şəkildə anılmışdır.

Bu mövzuda ilk şeir yazanlar sırasına Xəlil Rza, Bəxtiyar Vahabzadə, Fikrət Qoca, Zəlimxan Yaqub, Qabil, Məmməd Aslan və digər sənətkarlarımızı daxil etmək mümkündür.

20 Yanvar faciəsi və bu faciədə şəhid olmuş qəhrəman oğul və qızlarımız haqqında yazılmış əsərlər haqqında danışanda ilk ağlımıza xalq şairi Qabilin "Mərsiyyə"si gəlir. Şair 20 Yanvar faciəsini müqəddəslərin həlak olduğu Kərbəla hadisəsinə oxşadır. Şeirin adı bizə hər şeyi deyir, şair sanki burda bir xalqın faciəsinə mərsiyyə deyir.

Bu faciədə neçə-neçə uşaqların, gəlinlərin, qızların, oğulların vətənin müstəqilliyi uğrunda öldüyünü bildirir. Sonradan sanki, şair öz səhvini düzəldir, vətən uğrunda canından keçənlərin ölmədiyini, şanlı şəhidlik zirvəsinə ucaldığını, bu zirvəyə ucalanların isə xalqın qəlbində əbədi yaşayacağını bildirir.

Şeirin sonunu isə Qabil nikbin sonluqla bitirir, vətən övladlarına müraciət edir, tökülən şəhid qanlarının tarix boyu yerdə qalmadığını, bir gün bu tökülən qanların qisasının alınacağına inanır.

Bu fikrini isə " Ümid sənədir ancaq" şeirində davam etdirir. Şəhid qəbirlərini gördükcə ürəklərin yandığını, gözlərin yaşla dolduğunu, bu yanğının isə yalnız intiqam almaqla sönəcəyini, bu intqamı isə ancaq Azərbaycan əsgərinin alacağına ümid bəslədiyini söyləyir.

Qanlı Yanvarın səhərisi hətta ölümdən qorxmadan insanların içində rus hərbçilərinin üzünə tüpürən Bəxtiyar Vahabzadə elə o zaman kağıza köçürdüyü "Şəhidlər" şeirində şəhidliyin mənasını açmışdır.

O qanlı gecədə tankların qabağına əliyalın çıxan qəhrəman oğul və qızlarımız bir yumruğa dönmüş, cəsarətlə irəliyə çıxmış, zalımların zülmünə bu xalqın baş əyməyəcəyini göstərmişlər.

“Şəhid anası” şeirində şəhid anasının “Şəhid anası”yam deyərək imkansızlıq ucbatından məmurun qarşısında əyilməsini, ondan yardım istəməsini, ancaq bu nalənin kilidlənmiş daş ürəklərə təsir etməməsini şair dərin kədər hissilə təsvir edir.

“Şəhid məzarları” şeirində şair müstəqilliyə gedən yolun çətinliklərlə dolu olduğunu, bu yolda minlərlə şəhid verdiyimizi, bu şəhid məzarlarının düşmənə qənim kimi vətənin köksündə vüqarla dayandığını vurğulayır.

Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında şəhidlik mövzusu xüsusi yer tutur.“Şəhid qanı” şeirində şair 20 Yanvar faciəsinin dəhşətlərindən bəhs edir, o gecə Azərbaycanın qan içində çalxalandığını, yerdən-göydən şəhid qanının axdığını, şəhid qanının dünyanı yandırıb yaxdığını göstərir.

Şair şəhid qanının ağır olduğunu “Hər kəs öz əkdiyini, axırda biçər gedər” deməklə bir gün şəhid qanının qisasının alınacağını, şəhidlərin öz qanları ilə xalqı haqqa doğru aparan bir cığır açdığını vurğulayır.

Mirvarid Dilbazinin yaradıcılığında ən çox müraciət etdiyi mövzulardan biri də şəhidlik mövzusudur. “Şəhidlər qəbristanında” şeirində o, şəhidlər qəbristanını qəhrəmanlıq abidəsi adlandırır.

O, şəhid analarının dərdinə şərik olur, onlarla bir yerdə göz yaşı tökür, amma sonra anlayır ki, qəm dəryasına batmaqla, “Dərddən güclü milləti” dərdə, qəmə səsləməklə torpaq altında yatan şəhidlərin qisasını almaq mümkün olmayacaq, ağladıqca daha çox əziləcəyik, o anaları ağlamamağa qurban gedən oğulların intiqamını almaq üçün yeni nəsillər, yeni qəhrəman oğullar böyütməyə səsləyir.

M. Dilbazi Qarabağın gənc müdafiəçisi şəhid Qorxmaza həsr etdiyi “Qorxmaz” şeirində vətənin dar günündə igid oğullara ehtiyac duyduğunu, Qorxmazın da belə igidlərdən olduğunu, yurda düşmən ayağı dəyməsin deyə adına yaraşar şəkidə vətən torpağını öz köksüylə qoruduğu böyük qürur hissiylə təsvir edilir.

Fikrət Qocanın “Şəhid ruhunun anasına pıçıldadıqları” şeirində şair şəhidin ölməzliyini şəhidin öz dilindən, onun anasına dedikləri vasitəsilə təsvir edir. Şəhid

anasını yaxşı, yaman gözlərin qabağında qamətini əyməməyə, vüqarlı dayanmağa səsləyir. Ananın “böyük dərd” adlandırdığı oğul itkisini, şəhid özü üçün ən böyük səadət sayır, bu dünyaya bir də gəlsə yenə “Ana Vətən” uğrunda şəhid olmağı özü üçün ən böyük şərəf hesab edir.

Nəriman Həsənzadənin “Şəhidlər xiyabanı” adlı poeziya nümunəsində Şəhidlərin yatdığı məzarları müqəddəs yer adlandırır. İnsanları dayanıb bu müqəddəs yeri seyr etməyə, bu yarımçıq qalmış talelər barədə düşünməyə çağırır.

Rəşid Dönməz yaradıcılığında şəhidlik mövzusu qırmızı bir xətt kimi keçir. O,müxtəlif illərdə yazdığı şeirləri toplayaraq “Şəhid andı” adı altında kitab nəşr etdirmişdir. Bu kitaba daxil olan “Mübariz” şeiri Şəhid Mübariz İbrahimova ithaf olunmuşdur.

Şeirdə düşmənin ağa kimi ana yurdumuzda gəzməsinə dözə bilməyən, vətənin dərdini öz dərdi bilən, illərlə düşmənə nifət hissiylə yaşayan, gecələr bu düşüncələrin əsirinə çevrilən, fürsət düşən kimi düşməndən intiqam alan, bu yolda şəhid olan Mübariz İbrahimov təsvir olunur. Bu igidin nə qədər bu millət var unudulmayacağı, qəlblərdə yaşayacağı göstərilir.

Vətənin müstəqilliyi uğrunda canından keçmiş hər bir şəhidimiz bizim üçün unudulmazdır. Bu millət var olduqca onlar bizim qəlbimizdə yaşayacaqlar və ədəbiyyatımızda daim yad olunacaqlar.

Bu mövzuya nəzəri cəhətdən yanaşaraq bir sıra məsələləri xüsusilə qeyd etmək istərdik. Bildiyimiz kimi müasir ədəbi prosesin başlıca vəzifəsi baş verən hadisələrə çevik şəkildə reaksiya vermək, zəmanənin, dövrün tələblərinə cavab verən gözəl əsərlər yaratmaq və çağdaş bədii təcrübələr əsasında nəzəriyyəni yeni qaydalarla zənginləşdirməkdən ibarətdir. Bu dediklərimizi nəzərə alaraq belə bir sualla qarşılaşırıq son dövrlər baş verən hadisələr zamanı ədəbiyyatımız öz funksiyasını yerinə yetirə bildimi? Araşdırmalar zamanı belə nəticəyə gəlirik ki, ədəbiyyatımız heç də öz funksiyasını yerinə yetirə bilməyib. İstər Tovuz döyüşləri, istərsə də zəfərlə başa çatan II

Qarabağ müharibəsi zamanı Şəhid olan qəhrəmanlarımıza həsr olunmuş çox az sayda poeziya nümunələri ilə qarşılaşırıq. Bu mövzuya həsr olunmuş, forma və məzmun cəhətdən dolğun hesab etdiyimiz bəzi nümunələri nəzərdən keçirək.

Leyla Əliyeva iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində başlayan erməni təxribatı ilə bağlı şəhid olan hərbçilərimizə və onların övladlarına şeir həsr etmişdir. Leyla Əliyeva bu şeirdə “Güllələr önündə sipər olublar, Ana torpağımın mərd əsgərləri” deyərək Azərbaycan əsgərinin qəhrəmanlığını tərənnüm etmiş, qələbəyə inamını təsvir etmişdir.

Şair-publisist Elxan Yurdoğlu “Haqqınızı halal edin, şəhidlər” şerini II Qarabağ müharibəsi zamanı şəhid olan igidlərimizə həsr etmişdir. “ Bayraq kölgəsində olan şəhid məzarı”ndan daha müqəddəs bir yer tanımadığını vurğulamışdır.

Lirik şeirlə yanaşı epik şeirdə də şəhidlik mövzusu ən çox müraciət olunan mövzulardandır. Düzdür, araşdırmalarımız zamanı lirik şeirlər qədər çox nümunələrlə qarşılaşmasaq da, lazımı sayda şəhidlik mövzusunda epik şeir nümunələri tapa bildik. Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin “Şəhidlər” poeması istər bədii, istərsə də sənətkarlıq baxımından bu mövzuda yazılan ən kamil ədəbiyyat nümunələrindən biri, hətta birincisidir. Poema heca vəznində, bəndlər şəklində yazılmış, 20 Yanvar şəhidlərinə həsr olunmuşdur. Əsərdə 20 Yanvar şəhidlərinin azadlıq mücadiləsi günlərində göstərdiyi misilsiz qəhrəmanlıq tərənnüm edilmiş, əlləri günahsız insanların qanına bulaşmış qatillərə ümümxalq nifrəti öz əksini tapmışdır.

Əsərin başlanğıcında lirik üslub qabarıq formada özünü göstərsə də, daha sonra epik əlamətlər də özünü göstərməyə başlayır. Bəxtiyar Vahabzadə “Şəhidlər” poemasında sanki “Gülüstan” poemasında yarım qalmış fikirlərini davam etdirir, faciənin törədilməsi səbəblərini açır, faciənin səbəbkarlarını günahlandırır. Poema demək olar ki, başdan sona qədər suallar üzərində qurulmuşdur, amma bu suallar ritorik suallardır, cavablar elə sualların içərisindədir. Bu suallar vasitəsilə sənətkar xalqımızın

əsrlər boyu çəkdiyi zülmləri, bu zülmlərə baxmayaraq azadlıq əzminin qırılmadığını, gözlərini qırpmadan vətənin azadlığı üçün öz canlarından keçdiyini əks etdirir.
Haqsızlıqlara dözməyib ürəklərində vətən sevgisi ilə yaşayanlar o gecə bunun üçün günahkar sayıldılar. Şairi də bir məsələ düşündürür, axı vətəni sevmək niyə günah sayılsın, insan bunun üçün niyə cəzalandırılsın. O bütün əsər boyu bu suala cavab axtarsa da, tapa bilmir. Hər zaman şah kimi yaşayan bu xalqın köləyə çevrilməsi, başımızın üstündə "Allah" olmuşların hər əmrinə itaət etməsi xalqımızın hər bir qeyrətli nümayənsəi kimi Bəxtiyar Vahabzadəni də dərindən narahat edirdi. O, talaqsız nikah olunduğumuz bu əsarətdən xilas olmağın tək yolunu ayağa qalxıb bu əsarətə qarşı çıxmaqda görür, illərdir ümidimizi başqalarına bağlamağımızı ən böyük səhvimiz kimi qiymətləndirir.

Poemanın "Nə istəyir bu millət" adlı hissəsində o günlərdə küçələrə çıxaraq vətənin azadlığı uğrunda canından keçənlərin istəklərini təsvir edir. Ağır güzəran içində yaşasa belə heç kim bunu dilinə gətirmir, ev istəmir, pul istəmir bu xalq yalnız azadlıq istəyir.
"Təzadlar içində" adlanan hissədə şair bir müqayisə aparır. Bu müqayisə şəhid atalar və şəhid oğullar arasında aparılır. Bir zamanlar atalarının Rusiya uğrunda tərkibində döyüşdüyü Qızıl ordu o gün həmin ataların oğullarını şəhid etdilər. Şair buna dərin təəssüf hissi keçirir.

Şair şəhidləri düşünərkən bəzən şübhəyə düşür, görəsən, o zamanlar ağılsızlıqmı etdik, bəlkə daha ağılla hərəkət etsək bu qədər gənclər şəhid olmazdı deyə tərəddüd edir, amma sonra fikrini dəyişir qorxmadan ölümün üstünə getdiklərini, ölümləriylə qəhrəman olanların illərdir əlimizdən alınan haqqı, ədaləti bərpa etdiklərini vurğulayır. Buna görə də onlara boşyna candan keçdilər deməyi günah sayır.

Şəhidlər canlarını qurban verərək sübut etdilər ki, hər zülmün mütləq bir sonu gələcəyi gün vardır, bunun üçün cəsarət gərəklidir. Şair bu cəsarəti göstərib Vətən eşqini

ölüm qorxusundan yuxarda tutanları alqışlayır, Babəkin nəvəsi olan bu xalqın o gecə ölümləriylə tarix yazdığını qürurla qələmə alır.

Poemanın ən təsirli hissələrindən biri nakam qalan sevgililər İlham və Fərizəyə həsr olunmuş hissədir. Sənətkar bu hissədə hadisələri o qədər real və təsirli təsvir edir ki, oxucu təsirlənməyə bilmir. İlhamın  səs-küyə çölə çıxması, Fərizənin səhərə qədər onu gözləməsi, ancaq sevgilisinin deyil, onun qara xəbərinin gəlməsi, Fərizənin keçirdiyi hisslər insanın ürəyini parçalayır. Fərizəni zəmanəsinin Leylisi adlandıran şair bu vəfa, bu sədaqət üçün onu alqışlayır, hələ gəlinliyi köhnələməmiş, əllərindən xınası getməmiş bu qızın kəfən geyinməsinə ad qoya bilmir, belə bir faciəni təsvir etməyə söz tapa bilmir.

On üç yaşlı şəhid Larisa...Şəhidlərin ən kiçiyi... Hələ on üç yaşında olan bu qızı Bəxtiyar Vahabzadə kuklaya bənzədir, sonra bütün dünyaya sual verir, axı kuklaya kim atəş açar, onun nə günahı vardı, mətbəxdə çay süzən hər şeydən xəbərsiz Təranənin nənəsi Sürəyya nənə şəhid oldu o gecə onun günahı nə idi, başqası üçün çağırdığı təcili yardımın özünə qismət olacağını bilməyən Baba müəllimin günahı nə idi, onlarda üsyanamı qalxmışdılar?... Bütün bu suallarla əsər boyu şair günahkarları sual yağmuruna tutur, təəssüf ki, hələ də bu suallara cavab verilmir.

Poemanın sonuncu hissəsi "Şəhidlər" adlanır. Şair "Şəhidlər" adlı şeirini sonradan poemaya əlavə etmişdir. Ona görə bu hissədə lirik ünsürlər özünü daha çox göstərir. Bəxtiyar Vahabzadə bu hissədə Şəhidlərin göstərdikləri cəsarəti tərənnüm edir. Bir yumruğa dönərək öz cansız bədənləri ilə torpağa azadlıq toxumu əkənləri alqışlayır.

Milli azadlıq mübarizlərinin qəhrəmanlarının ümumiləşdirilmiş parlaq bədii obrazı yaradılan, şəhidlərin qəhrəmanlığından, günahsız yerə qətlə yetirilməsindən danışılan əsərdə nikbin ruh, gələcəyə inam öz əksini tapır, Şair inanır ki, şəhidlərin qanı yerdə qalmayacaq, xalqın igid övladları mübarizəni davam etdirəcək, üçrəngli bayrağı enməyə qoymayacaqdır.

Oxuduqca insanın qəlbinə toxunan şəhidlik mövzusunda yazılan ən dəyərli əsərlərdən biri də Əbülfət İslamın "Şəhid sevgililər" poemasıdır. Şair əsəri nakam sevgililər İlham və Fərizəyə həsr olunmuşdur. Poemada İlhamın doğulması, uşaqlıq xatirələri, Fərizə ilə olan məhəbbəti, toylarının baş tutmağı, Vətən üçün savaşı, şəhidlik zirvəsinə ucalması, Fərizənin İlhamın yoxluğuna dözməyib özünü öldürməyi real cizgilərlə əks olunmuşdur.

Həsrətlə qovuşmağı gözləyən sevgililərin qovuşmasından çox az bir müddət sonra azadlıq üçün xalq meydanlara axışır. Meydana axışanlar sırasında İlham və onun qardaşı Elxan da var idi. O gecə səhərə qədər oğullarının yolunu gözləyən Ofeliyanın, qardaşlarının yolunu gözləyən bacıların, İlhamın yolunu gözləyən Fərizənin gözünə yuxu getmir, səhərə qədər onları gözləyirlər. Elxan qanlar içində gəlib çıxsa da, İlham geri qayıtmır. Səhərisi qardaşını axtaran Elxan onun yalnız cansız bədənini tapa bilir. İlham da o gecə Vətənin azadlığı uğrunda canını qurban verənlər sırasında idi. İlham da o meydana şəhid olmaq üçün gedənlərdən idi.

O gün şəhid olan hər kəs kimi İlham da bu yolu özü seçmişdi. Vətənin azadlığını öz canından üstün tutanlar sırasında onun adı hər zaman birinci çəkilənlər sırasındadır.
20 Yanvar hadisələrinə və bu faciədə şəhid olanlara həsr olunmuş poemalardan biri də Əhməd Qəşəmoğlunun "Cavanşir" poemasıdır. əsərin əsas qəhrəmanları Cavanşir və onun sevgilisi Humay olsa da, poema tək onların başına gələn hadisələr üzərində qurulmamışdır. Burada müəllif şəhid Allahyarın xüsusi obrazını yaratmışdır. Şəhid Allahyar o gecə vətən üçün canından keçənlərin ümumiləşdirilmiş obrazıdır. Tankların gələcəyini eşidəndə qorxuya düşənlərin qarşısına keçərək kim gedir qoy getsin, mən tək də qalsam sona qədər qalacağam, qoy tanklar gəlib keçsin üstümdən deyir. O, dediyini edir, sona qədər mübarizə aparır. Allahyarı bu yoldan döndərmək istəyənlərə "-Qədim el adətincə, bir evdə yeddi oğul varsa, biri yurda yağı gələndə şəhidlik, qurbanlıqdır" [11] deyərək yuyunub-qüsllənir, hər kəslə sağollaşıb meydana çıxır. O gecə özünü vətən yolunda qurban deyənlərin hər biri kimi Allahyar da öz arzsuna çatır, şəhid olur.

“Cavanşir” poeması nəzmlə yazılsa da, burada demək olar ki, nəzmin tələbləri ödənməmişdir, hadisələr sanki nəsr şəklində ardıcıl şəkildə danışılır və qafiyəli sözlərdən nadirən istifadə edilmişdir. Əsər poema janrında olsa da, lirik motivlər daha çox üstünlük təşkil edir, buna görə də əsəri lirik-epik poema adlandırmaq daha düzgün olardı.

Başıbəlalı yurdumuz tək 20 Yanvar hadisələri zamanı deyil, ondan əvvəl və sonrakı dövrlərdə də saysız-hesabsız şəhidlər vermişdir. Azərbaycanın oğulları ilə yanaşı qızları da Vətənin müstəqilliyini hər zaman öz canlarından üstün tutmuşlar. Belə qızlarımızdan biri də Azərbaycanın ilk şəhid qadın jurnalisti Salatın Əsgərovadır. O, hələ 29 yaşında olarkən Laçından Şuşaya gedən maşında onunla olanlarla birlikdə güllələnmişdir. Salatın Əsgərova Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Salatın Əsgərovanın xatirəsini əbədiləşdirmək üçün Nəbi Xəzri onun haqqında elegiya poeması yazmışdır. Şair “Salatın” adlandırdığı poemanı lirik tərənnüm əsasında qələmə almışdır. Bu əsərdə Nəbi Xəzri Salatının timsalında mərd, qorxmaz Azərbaycan qadınının ümumiləşdirilmiş obrazını yaratmışdır.

Qarabağdakı hadisələr zamanı Salatın daim baş verənləri yaxından izləyir, tez-tez Qarabağa gedib-gəlirdi. Əsərdə də Salatının sonuncu dəfə gedişi təsvir olunur. O gedərkən atasına bir tək oğlu Ceyhunu əmanət edir. Salatın sanki o gün ölümə getdiyini bilirdi, O bilirdi ki, başının üstündən atılan güllələr bir gün ona da tuş gələcəkdir.

Atası onu igid bir oğul kimi böyütmüşdü, Salatın doğulanda oğlu olacağını düşünən ata ona Soltan adını qoymaq istəyir, qızı oldğunu görəndə Soltan adına uyğunlaşdırıb Salatın qoyur. Salatın böyüyür cəsur bir qız olur, vətən qarşısındakı borcunu hər şeydən üstün tutur, vətən, torpaq, xalq yolunda şəhid olur. Yüz kişiyə bərabər tutduğu qızı atasının ümidlərini doğrultdu.

Atası son dəfə onu getməyə qoymaq istəmir, ancaq Salatını Vətən çağırırdı, o getməyə bilməzdi.

Salatın mən ölənlərdən artıq deyiləm deyərək qələmini götürüb yola çıxır, ancaq bu gediş əvvəlki gedişlərə bənzəmir, o bir daha atasının və oğlunun yanına qayıda bilmir. Salatın şəhid olanda çox gənc idi, hələ ölüm onu axtarmırdı, ancaq o, ölümü axtardı, çünki şəhid olan hər kəs kimi o da bilirdi ki, Vətən uğrunda ölən varsa, Vətən var.

Doğma Qarabağımız illər sonra düşmən tapdağından azad olundu. Bu qələbəni biz Mübariz İbrahimov kimi igidlərimizə borcluyuq. Mübariz İbrahimovun qəhrəmanlığını tərənnüm edən bir çox əsərlər yazılsa da, Mübarizin bir qəhrəman kimi obrazını ilk dəfə Nəriman Həsənzadə "İstiqlal əsgəri" poemasında yaratmışdır. Mükəmməl bədii dilə sahib olan əsər İsmət Bora tərəfindən türk dilinə tərcümə olunmuşdur.

Əsərdə Mübarizin uşaqlıq illərindən başlayaraq şəhid olduğu günə qədər həyatının müəyyən mərhələləri verilmişdir ki, bu hissələrdən hələ uşaq yaşlarından Mübarizin vətən sevgisi aydın hiss olunur. Şair Mübarizin şəhid olduğu gecəni Nuh peyğəmbər tufanının baş verdiyi gecəyə bənzədir.

Boy-buxunu, yerişi, duruşu ilə öz yaşıdlarından fərqlənən Mübarizin qəhrəmanlığını neçə min il bundan qabaq yaşamış, yarı insan, yarı Allah qiyafəsində olan Gilqamışın qəhrəmanlığı ilə müqayisə edən şair Müabrizin də Gilqamış kimi ər oğlu ər olduğunu, yurdunu yağılardan qoruduğunu, yalnız ədalət üçün yaşadığını təsvir edir. Bu təsvirlər canlı olaraq Mübariz İbrahimovu görə bilməyənlərdə belə onun necə bir igid olduğu haqqında aydın təsəvvür yarada bilir.

Əsərin maraqlı yerlərindən biri də sənətkarın tarixi faktlara əsaslanaraq ermənilərin bu torpaqlara gəlmə olduqları, Qafqaz əhli olmadıqlarının əks olunduğu hissədir. Kimlərinsə xəfiyyəsi olaraq bu yerlərə gələn ermənilərə ən məhsuldar torpaqların verildiyini, sonradan onların özlərini bu yerlərin sahibi kimi apardığını, guya, qədimlərdən bu ərazilərdə yaşadıqlarını sübut etmək üçün tarixi abidələri mənimsəməyə çalışdıqları böyük bir ikrah hissi ilə qələmə alınmışdr. Ömürboyu çörəyi dizləri üstündə olan bu mənfurlar yalnız xəyanət düşündülər, bir süfrədə çörək

kəsdikləri,torpaqlarında məskun saldıqları insanları qaçqın, köçkün etdilər. Bu ədalətsizliklə bir çoxları kimi Mübariz İbrahimov da razılaşa bilmədi. Hələ uşaqlıqdan tökülən qanların qisasını alacağına söz verən Mübariz bu sözünə əməl edir, bütün arzularını geridə qoyaraq o tufanlı gecədə bir qartal kimi düşmənin üstünü almış, onları məhv etmişdir.

Mübariz İbrahimovun məktəb illərinin təsvirini verən şair kövrək notlara toxunur. Onun uşaq qəlbinin gələcək aruzlarını, ilk məhəbbətini əks etdirir. Rəssas olmaq istəyən Mübariz saçında lent olan o qızın rəsmini çəkir. Ay parçası olan o qıza qovuşaq ona qismət olmur, vətən sevgisi qəlbində bütün sevgilərdən üstün olan Mübariz cəbhəyə yola düşür.

Poema Mübarizin düşmən üzərinə hücum etdiyi o gecənin təsviri ilə tamamlanır. Oxucu bu hissəni oxuduqca Mübarizin bu hücum zamanı keçirdiyi hisslərlə tanış olur. Mübariz bilirdi ki, onun arxasında Ali Baş Komandan və bütün xalq dayanıb. O gecə onu şəhidlərin ruhları qoruyurdu. O, illərlə qəlbində yandırdığı qisas alovunu söndürmək üçün yola çıxmışdı, bunun üçün son damla qanına qədər vuruşmuş və böyük bir zəfər yolunun başlanğıcını qoymuşdur.

Balayar Sadiqin "Şəhid ətri" poeması II Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuşdur. Əsər prolqla başlayır. Proloqda şair qazanılmış şanlı qələbəmizi tərənnüm edir, bu son mübarizən üzüağ çıxıdğı üçün bütün xalqa göz aydınlığı verir, mələklərin də bu qələbədə haqqın tərəfində olduğunu vurğulayır.

Canımın canı adlandırdığı Vətənin hər daşı üçün belə canında keçməyə hazır olduğunu deyir, çünki vətənin daşları da onun vətəndaşları üçün çiçəkdir. Müəllif sevinclidir, ona görə ki onun Qarabağ adlı arzusu real olub, həyata keçib. Bu arzunun həyata keçməsində səbəbkar isə şairin "Şuşanı Vətənə döndərən oğul!" adlandırdığı şəhidlərimizdir. Bu səbəbdən proloqdan sonrakı hissələri Balayar Sadiq bu oğullara müraciət etməklə davam etdirmişdir.

Xalq olaraq qəlblərimizdən asılmış dərdi yox edən, həsrətlə yolllara baxan gözlərdəki nisgilə son qoyan bu qəhhrəmanlar ömür kitablarının sonuna hünər yazısını yazdılar. Ali baş komandanın qabaqda yeriyib arxasınca gətirdiyi bu oğulların odlu baxışla düşmənin başına ələnmişdir.

Birinci hissədə biz daha çox qürur hissləri keçiririksə, ikinci hissədə qəlbimizə toxunan sözlərlə müəllif bizi kədərləndirir. Elə ilk cümlədə Vətənə müraciət edən ədib ona sanki kədərli bir xəbər verir, bir oğlunun bu gün səngərdə yerinin boş qaldığını çatdırır. Bu xəbərə göylər də fəryad edib ağlayır, buludlar əyilib bu igidin alnından öpür. Bu igidlər dövrün Babəkidir,onun kəsilmiş qollarıdır. Diqqəti çəkən məqamlardan biri budur ki, şair döyüşdən qayıda bilməyən oğullara mərsiyə deyib ağlamır, göstərdikləri hünəri tərənnüm edir, hər qayıda bilməyən şəhid Vətən torpağının azadlığına bir addım da yaxınlaşmaq kimi qiymətləndirilir.

Nə qədər hünər tərənnüm olunsa da, şəhid analarının bir gecədə ağaran saçları qarşısında insanın ürəyi yanmaya bilmir. Döyüşdən qayıda bilməyən oğullarla bərbabər sanki onların anaları da torpağa qoyulur, onların dilindəki laylaların məzmunu artıq kədərlə dolur, ataların ürəyi çat verir, Vətənin sinəsində şəhidin ölümünə səbəb olan hər güllə köz olub yanır, amma sonra bu közlər döyüşçünün hünərindən çevrilib çiçək olur.

Şəhidlərin ölümü cismani ölümdür, onlar mənən yaşayır, bizimlədir, onlar şəhid olanda ölümsüzlüyün qapısından keçirlər. Buna görə də şair şəhid olanların döyüş yolunun hələ yeni başladığı fikrini irəli sürür, bu döyüş yolu əbədi gedilən bir yoldur.

Bu oğullar elə-belə canlarından keçmədilər, onlar düşmənin ömrünə qaranlıq günlər gətirdilər, canlarında əbədi bir qorxu yaratdılar. Göstərilən bu hünərə fələk özü də heyrətləndi.

Döyüşlər zamanı gələn hər şəhid xəbəri xalqımızı ruhdan salmadı, daha qüvvətləndirmiş, qələbəyə daha da inandırmışdır. Vətənin hər qayasından bizə şəhidlərin hünər dolu gözləri baxır, onların cənnətən gələn işığı yurdumuzun üzərində parıldayır.

Sonda poemanı epiloqla bitirən müəllif iki min yeddi yüz səksən üç şəhidin sözlərini xalqa çatdırmaq kimi məsuliyyətli bir işi boynuna götürdüyünü qeyd edir, Vətən üçün canından keçənlərin cənnətə köçdüyünü bildirir və bu köçü ulu, müqəddəs bir köç adlandırır.

Əsər müharibənin bitdiyi ilk günlər yazılmışdır və şəhidlərimizin sayı o dövrlərdə dəqiq açıqlanmamışdır və Balayar Sadiq də həmin anda açıqlanan saya, əsasən, əsəri yazmışdır.

Sonda o, Vətənə müraciət edir, alınmış qisas üçün onu təbrik edir, vətənin simasında xalqın qəlbində illərdir olan şəhid dərdinin yenidən təzələndiyini və əbədi olaraq ürəyimizdə, yaddaşımızda həkk olunduğunu vurğulayır.

Ədəbiyyatımızın yaddaşında şəhidlik mövzusu daim yaşayır və bu gün qələm sahibləri bu yaddaşa yeni səhifələr bəxş etməlidirlər ki, vətənin azadlığı uğrunda canından keçən şəhidlərimiz daim yad olunsun, gələcək nəsillər onların qəhrəmanlıqlarından nümunə götürsünlər.

## 2.2 İkinci Qarabağ müharibəsinin ədəbiyyatda əksi

Ədəbiyyatda Qarabağ mövzusunun dərinləşməsinin bir sıra tarixi-siyasi kökləri mövcuddur. XVIII əsrdə, daha dəqiq desək 1724-cü il noyabrın 10-da I Pyotrun fərmanı ilə özlərinə etnik dayaq yaratmaq məqsədilə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi başlanmış, sonrakı dövrlərdə də bu siyasət davam etdirilmişdir. Özgə torpaqlarında məskunlaşan hiyləgər ermənilər elə ilk günlərdən bu torpaqları mənimsəmək üçün əllərindən gələni etmişlər. Ötən əsrin sonlarında belə mənfur planların nəticəsində torpaqlarımızın 20%-i işğal olunmuş, xalqımız qaçqın həyatı yaşamağa məcbur olmuşdur. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü

ilə atəşkəs imzalansa da, illərlə düşmən yenə də öz mənfurluğundan əl çəkməmiş, neçə-neçə igid oğullarımız şəhid olmuşdur. Otuz il bu məsələnin sülh yolu ilə həll olunacağını gözləsək də, son dövrlər baş verən hadisələr bunun mümkünsüz olduğunu sübut etdmişdir. Atəşkəs imzalandıqdan sonra ən şiddətli ilk döyüş 2016-cı ilin aprel ayında baş vermiş, bu döyüş rəşadətli ordumuzun qələbəsi ilə nəticələnmiş, bir çox yüksəkliklərimiz düşmən işğalından azad olunmuşdur. 2020-ci il 12 iyul tarixində düşmənin yenidən Tovuz istiqamətində atəşkəsi pozması nəticəsində növbəti şiddətli döyüşlər başlamış, bu döyüşlər zamanı general-mayır Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruz, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynalov, gizir Yaşar Babayev, baş çavuş Vüqar Sadıqov, çavuş Elçin Mustafazadə, çavuş Nazim İsmayılov, baş əsgər Elşad Məmmədov, əsgr Xəyyam Daşdəmirov şəhidlik zirvəsinə ucalmışdır. Bu artıq Azərbaycan xalqının səbrinin son həddi olmuş, igid oğul və qızlarımız küçələrə çıxaraq müharibə üçün dövlətə müraciət edir, səfərbərlik üçün könüllü olmuşlar. 2020-ci il sentyabrın 20-də növbəti düşmən təxribatı zamanı ordumuz əks hücuma keçmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək onları dəmir  yumruq ətrafında birləşməyə səsləmişdir. Xalqımız bir bütöv olmuş, hər kəs əlindən gələnin ən yaxşısını etməyə çalışmışdır. Müharibə dövründə hamı yüksək əhval-ruhiyyə içərisində idi, ağır artilleriya ilə dinc əhalinin ev-eşiyini dağıdan düşmən bununla bizi qorxudacağını düşündü amma bacarmadı, ölüm uğruna da olsa heç kim öz yaşayış yerini tərk etmədi, şəhid ata, anaları təki vətən sağ olsun deyib dik dayandı. Məhz bu birliyin nəticəsində qələbə bizim oldu. Nəhayət ki, 30 il sonra hər bir azərbaycanlının qəlbində olan ən böyük arzusu həyata keçdi: Biz qayıtdıq! Bu qayıdış bizə yeni-xoşbəxt günlər vəd edir. Artıq xalqımızın qəlbi həsrətlə, nisgillə deyil, qələbədən doğan sevinclə dolub.

Ordumuz öz işini görmüş, qələbə qazanmış, növbə cəmiyyətin bütün üzvləri, bütün fəaliyyət istiqamətləri üzrə bu zəfərin qorunmasında, onun dəyərinin və mahiyyətinin gələcək nəsillərə ötürülməsindədir.  Bu məsələyə ən həssas yanaşan peşə

sa-sənət sahələrindən birincisi qələm sahibləri olmuşdur.Təbii ki bu hələ yeni başlanan proses kimi özünün ilk cığırlarını açmaqdadır. Ədəbiyyat yaradanlar bu şanlı qələbə ilə bağlı qürur dolu əsərlər yaratmalı, zəfər yürüşümüzü, qalibiyyətimizi dünyaya çatdırmalıdırlar.

Hələ qalibiyyət tariximiz çox yeni olduğu üçün bu mövzuda həm həcm, həm də ədəbi-bədii cəhətdən o qədər də güclü əsərlər gözləmək düzgün olmaz. Amma müharibə başlayan ilk gündən bəri qələmə sarılanlar öz işlərini layiqincə yerinə yetirməyə çalışırlar. İstər müharibə dövründə, istərsə də ondan sonrakı dövrdə həm mətbuatda, həm də ədəbiyyatda ən çox yazılar məhz Zəfər tariximizlə bağlı olmuşdur.

Biz bu yarımfəsildə əvvəlcə qısa şəkildə lirik şeirlərdə, daha sonra isə təsvir imkanları daha geniş olan epik şeirdə Zəfər yürüşümüzlə bağlı yaradılan bədii nümunələrin təhlilini vernək, mövzuya sənətkarların hansı aspektdən yanaşdığını aydınlaşdırmaq istədik.

Vətən müharibəsi başlanan ilk günlərdən qələmini alıb savaş meydanına atılanlardan biri də Xalq şairi Vahid Əziz olmuşdur. Onun “Bir bayatı çağırdılar”, “Silahını inamla tut”, “İndi yaşananlar ibrət dərsləri”, “Ali Baş Komandan”, “Qara bulud sonra ələn...” və.s şeirlərini nümunə göstərə bilərik.

“Ali Baş Komandan” şeirində müharibə dövründə xalqıyla iç-içə olan, bir amal yolunda çalışan, bütün dünyaya haqq səsimizi çatdıran “supergüclər”ə qarşı dik dayanan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin obrazı yaradılmışdır.
Sözdə özünü dərdimizə yanan göstərib əməldə bunu görməyən Vahid Əziz türkün ancaq türkə güvənib, inanmağını bildirir.

Müharibə dövründə düşmən qanunları pozaraq sərhəd bölgəsindən uzaq ərazilərə raketlər atır, sivil vətəndaşların sağlamalığı üçün təhlükə yaradırdılar. Belə hücumlardan ən dəhşətlisi Gəncə və Bərdə şəhərlərinə edildi. Onlarla insan bu hücumlarda evsiz-eşiksiz qaldı, şəhid oldu. Bu dəhşətlərə səssiz qala bilməyən Vahid Əziz “İndi yaşananlar ibrət dərsləri...” şeirində bu məsələyə toxunur:

Şair Əyyub Qiyas "Diriliş marşı" şeirində düşmənə səsləndi, bu torpaq uğrunda qanı tökülən hər bir şəhidin ruhunun göylərdən baxdığını və artıq intiqam gününün gəlib çatdığını, tökülən hər bir qanın misliylə hesabının soruşulacağını qürurla qələmə almışdır:

"Çatmış da qisas vaxtıdır, məşəlləri yandır!
Bir an dediyim an yetişib, an həmin andır!
Sən ey mərə kafir, görəcəksən, qana qandır!
Bir seldir gəlir, qarşısına çıx da dayandır!" [53]

O günlərdə Atababa İsmayıloğlu "Gəlirik, Vətən" dedi. Bu müharibəni bizim üçün bir sınaq adlandıran şair bu sınaqdan xalqımızın üzüağ çıxacağına əmin idi, çünki daha ikitərəfli oyunlar oynayanlara deyil, öz gücümüzə inanırıq. O, qazanılan qələbənin gecikdiyini düşünüb, qələbəmizə kölgə salmaq istəyənlərə cavab verir və illərdir gözləməyimizin səbəblərini açıqlayır.

Yasəmən Qəyyumlu da Zəfərimizdən doğan fəxr, sevinc hisslərini qələmi vasitəsilə cəmiyyətə çatdıranlardan biridir. Onun "Biz gəirik, Qarabağ", "Qeyrət qalasıdır Şuşa yurdumun" əsərləri bu qəbilədəndir.

Onun "Qeyrət qalasıdır Şuşa yurdumun" əsəri daha çox lirik şeir təsiri bağışlasa da, onu kiçik həcmli poema kimi də qiymətləndirmək olar. Şairə Şuşaya gedən yolu haqqın hərgahına gedən ədalət yolu kimi dəyərləndirir. Şeirlər, çiçəklər düzülən bu yolu getməkdə Tanrı da bizə kömək etmişdir. İllər sonra qovuşduğumuz Cıdır düzündən bu qələbəni bizə bəxş edən şəhidlərin qoxusu çökmüşdür, .

Şeir boyu Yasəmən Qəyyumlu Şuşada olan ən gözəl yerlərin Cıdır düzünün, İsa bulağının, illərdir boynu bükük qalan Xarıbülbülülün sevincini təsvir edir, bu yerlərin öz doğmalarını, Qarabağ şikəstəsini, Xanın səsini unutmadığını yazır.

Bağrı yarılaraq sinəsindən qoparılan Şuşasına qovuşduğu üçün vətəni təbrik edir, bu günlər üçün şükürlər oxuyur.

Tovuz hadisələrindən başlayaraq, xüsusilə, Vətən müharibəsi və ondan sonrakı dövrlərdə ədəbiyyatımızın mövzu tematikası hiss ediləcək səviyyədə dəyişir. Hətta gənc şairlərimiz belə artıq duyğular aləmindən uzaqlaşmış, sentimental sevgi, ayrılıq kimi mövzulardan daha çox savaş, qələbəyə olan ümidlə bağlı mövzulara meyil edirlər. Belə gənc şairlərimizdən biri də Fərid Hüseyndir. O, hələ Vətən müharibəsi başladığı ilk günlərdə "Yumruq günü" poemasını yazmağa başlamışdır. Gənc şair bu poemanı şəhidlərimizin ruhuna və Qarabağ torpaqlarına ithaf etmişdir.

Poema müharibə hələ yeni başlayanda yazılsa da, elə ilk misralardan qələbəyə inam hisslərinin əksi diqqətimizi çəkir. Şair hər kəsi zəfər köynəklərini geyinməyə hazır olmağa səsləyir, üzlərdən ağrı, kədər izlərini siləcək günəşin doğacağı günlərin yaxında olduğunu dərin bir inam hissi ilə qələmə alır.

O, əmindir ki,biz yaşamalı olduğumuzu yaşayacağıq və illərdir ki, sadəcə xəritədə əlimizlə toxuna bildiyimiz torpaqlara artıq ayaq basacağıq. Çünki xalq olaraq anladıq ki, bizim özümüzdən. öz gücümüzdən başqa sığınacaq yerimiz yoxdur. Dünyanın ədalətinə inanaraq yaşadığımız hər gün qələbəni bizdən uzaqlaşdırdı, biz də bu ədaləti özümüz bərqərar etdik.

Müəllif bizim haqlı savaşımızda bizi haqsız görənlərə müraciət edir, qanı qanla yumaq yolunun bizim üçün artıq son çarə olduğunu, bizim daha ümidlərimizi uyutmayacağımızı, artıq ayağa qalxıb ümidlərimizi doğrultmağın vaxtı çatdığını, bunun üçün də hər kəsin bir yumruq kimi birləşib döyüşə atıldığını təsvir edir.

Otuz illik bir müddətdə məğlub xalq kimi yaşamağımız artıq bəzi insanlarda belə bir düşüncə formalaşdırmağa başlamışdı ki, bizim torpaqlarımızı almağımız bir xəyaldır və bu heç vaxt gerçəkləşə bilməyəcək. Buna səbəb kimi isə çox vaxt yeni nəslin vecsizliyi, vətən, torpaq qədri bilmədiklərini göstərirdilər. Ancaq baş verən hadisələr, qazanılan qələbə bunun tam əksi olduğunu göstərdi. Hələ Tovuz hadisələri başlayanda gənclərimiz könüllülük üçün sıraya girdi. Müharibə başlayanda nəinki oğlanlar, hətta qızlar da cəbhəyə getmək üçün müraciət etdilər. Vəzifəsini. ailəsini, övladlarını geridə

qoyub, canlarını bir an belə düşünmədən döyüşlərə qatıldılar. “Mən ölsəm ağlamayın, fəxr edin” dedilər. Bu cəsarətə, qorxmazlığa bütün dünya heyrətlə baxdı. Əlbəttə, Zəfər ədəbiyyatımızdan danışanda dünyanı heyrətə gətirən igidlərimizdən bəhs etməmək mümkün deyil.

II Qarabağ müharibəsində qəhrəmanlıqları ilə dastan yazan oğullarımızın ən gözəl təsvirini verən yazıçılarımızdan biri də İlqar Fəhmidir. Onun “Balaca kişilər” poeması bu baxımdan xüsusilə seçilir. Əsərin adı simvolik məna daşıyır və bir gündə böyüyən balaca kişilərə həsr edilib.

Hər zaman bir ifadə işlədilir “zəmanə dəyişib...”. Bu ifadənin altında əslində zəmanə yox, insanların dəyişdiyi fikri yatır. Bəs insanlar necə dəyişib? Həqiqətənmi insanlar cılızlaşıb, kişilik, hünər, cəsarət keçmişdə qalıb? Nəhayət ki, 30 il sonra bu sualların cavabı hamıya məlum oldu. Məlum oldu ki, vətənə canımız qurbandır deyən oğullar bunu sadəcə dildə deyil, ürəkdən deyir, onların canı vətənin hər qarışı üçün qurban oldu. İlqar Fəhmi də məhz bu hünəri, cəsarəti təsvir edib, amma dolayı yoldan istifadə edərək. İllərlə mənfi fikirdə olan insanları sanki öz sözləri ilə utandırmaq istəmişdir.

“Dedilər, “Kişilik, hünər, cəsarət
Daha gözə dəymir, keçmişdə qalıb
“Vətənə canım da qurbandı” demək
Yalnız dildə qalıb, vərdişdə qalıb...””[36]

Bütün bu ittihamlara sənətkar cavab verir. O cılız saydıqları oğulların necə düşmənə qan uddurduğunu, onları qorxu içində saxladığını qürurla təsvir edir.

“O zəif deyilən, cılız deyilən,
O xırda uşaqlar əsgərdi bu gün,
Geyinib ruhuna mərdlik libasın.
Düşmənə gücünü göstərdi bu gün”[36]

Bu müharibə bizə on səkkiz yaşlı şəhidlər, qazilər göstərdi. Hansılar ki isti ana yuvalarından yeni ayrılmış, arzuları olan gənclər idi . Onlar vətənin azadlığını arzularından, xəyallarından üstün tutdular. İllərlə ürəklərində düşmənə bəslədikləri kin, nifrət o günlərdə üzə çıxdı, zəif görülən oğullar sanki sərt bir qayaya, nəhəng divə çevrildilər. Bunun ən yaxşı nümunəsi 19 yaşlı Cəbrayıl Dövlətzadədir. O, müharibədə sadəcə bir gün iştirak edə bildi, ancaq içində illər boyu elə bir nifrət böyütmüşdü ki, düşmən general və polkovniklərini əlləri ilə boğaraq öldürdü. Dünyaya gəldiyi gündən bir dəfə də olsun ata-baba yurdunu görə bilməyən, həyatının bahar çağlarında olan bu gənc ürəyindəki həsrətin, nisgilin intiqamını ancaq belə ala bilərdi. Bunun kimi üç minə yaxın gəncimiz torpaqlarımızın azadlığı uğrunda canlarını heçə saydılar. İlqar Fəhmi də poemada balaca kişilərin necə böyük hünərə sahib olduqlarını, yaşlarının kiçik, əməllərinin böyüklüyünü təzad yaratmaqla təsvirini elə verir ki, oxucu heyrətlənməyə bilmir.

Tarix boyu nə qədər ağrılı-acılı günlər yaşasaq da, heç bir zaman ruhən sınmadıq, qələbəyə inandıq. Bir gün mütləq bizim olanın bizə qayıdacağı ümidini itirmədik. Otuz ilə yaxın bir müddətdə xalq olaraq Qarabağa dönmək arzusu, məqsədiylə yaşadıqsa, şairlərimiz, yazıçılarımız da bu dönüşün sevincini, qürurunu yazıya alacaqları günü gözlədilər. Nəhayət ki, o gün gəlib çatdı. Bu arzusunu ilk həyata keçirənlərdən biri Sabir Rüstəmxanlı idi. Sabir Rüstəmxanlı müharibə başlayan ilk günlərdən bəri mətbuatda fəal çıxış edən ədiblərimizdən biri idi. O bu çıxışları ilə hər kəsə ruh yüksəkliyi verir, qələbəyə daha da inandırırdı. Bütün bu çıxışların yekunu olaraq o, “Qarabağa dönüş” poemasını yazdı. “Vətən müharibəsindən sonra Qarabağ mövzusunda yazılmış ilk əsər olan poemada 44 günlük Vətən müharibəmiz və bu müharibədə igid oğullarımızın qəhrəmanlığı, xalqımızın müstəqillik və vətən torpaqlarının bütövlüyü uğrunda apardığı mübarizəsi və birliyi yüksək poetik sənətkarlıqla təsvir edilir” [46] Poema15 hissədən ibarətdir və hər bir hissə məzmun bitkinliyinə sahib olsa da, bir-biriylə sıx bağlıdır. Sabir Rüstəmxanlı bu əsəri yazmaqla Zəfər yürüşümüzlə bağlı əsər yazmaq ənənəsinin

əsasını qoymuş oldu və zəfər tariximizin yeni olmasına baxmayaraq bir çox əsərlər yarandı.

"Qarabağa dönüş" poemasının 1990-il 20 Yanvar hadisələrinin təsviri ilə başlaması heç də təsadüfi deyildir. Xalqımızın bir yumruq olaraq azadlıq üçün ayağa qalxdığı o günlər torpaqlarımızın azadlığı uğrunda vuruşan xalqımız üçün bir şanlı tarix nümunəsi idi. Geriyə baxanda həmin günlər bizə xalq olaraq nələrə qadir olduğumuzu göstərir. Buna görə də S.Rüstəmxanlı əsərini məhz meydan hərakatının təsviri ilə başlayır.

"Gözümüzdə bir əsrin axan nahaq qanları,
Kükrəyib dağ çayıtək doldurduq meydanları.
Meydan ana qucağı, bir ürəkdi, bir candı,
Həsrəti qırıb tökmüş bütöv Azərbaycandı"[28]

Xalqın illərlə "öz ordusu" olduğuna inandığı Qırmızı Ordunun əli silahsız xalqı tankların altında necə əzdiyini, lakin azadlıqdan başqa bir şey düşünməyən insanların müqavimətini qıra bilmədiyini, iki il sonra bu işğalçıların erməni vandallarının arxasında durub Xocalıda törətdikləri dəhşətləri qələmə alır, bu dəhşətlərə siyasət adıyla susanları ittiham edir.

Poemanın ikinci hissəsindən başlayaraq artıq II Qarabağ müharibəsinin başlanmasından və hadisələrin gedişindən danışılır. "Qarabağa dönüş" poemasını oxucu üçün maraqlı edən ən başlıca səbəblərdən biri əsərdə Vətən müharibəsinin başlanması, gedişatı və nəticəsinin dolğun şəkildə təsvir edilməsidir. Əsəri oxuduqca adam elə hiss edir ki, sanki o günləri yenidən yaşayır. Gələcək nəsillər "Qarabağa dönüş" poeması vasitəsilə Azərbaycan ordusunun necə bir qəhrəmanlıq dastanı yazdıqlarının qürurunu yaşayacaqlar. 30 il uzaq qalsaq da, doğma torpaqlarımızı əsla unutmadığımızın, Ali Baş Komandanın göstərişi ilə hər kəsin canı bahasına Qarabağımıza qovuşmağımızın şahidi olacaqlar.

Üçüncü hissədə isə Sabir Rüstəmxanlı öz oxucusuna Qarabağ ədəbi mühitini, tarixini tanıdır. Ömrünün sonuna qədər həsrətlə yaşayan, amma öz arzularına çata bilməyən Ağa Laçınlı, Hüseyn Kürdoğlu, Məmməd Aslan, Eldar Baxış kimi sənətkarların obrazını yaradır. Şair sanki onlarla söhbət edir, onları öz arzularına çatdırır, vətənlərinə qovuşdurur.

Əsrlərdir parçalanan, hər parçası bir qonşumuzda əsir qalan Vətənimizin bir hissəsinə qovuşsaq da, ürəyimiz hələ də bu ayrılıq kədərindən tamamilə xilas olmamışdır. Üş əsrə yaxın bir zamandır cənublu qardaşlarımızla ürəyimiz, ruhumuz bir olsa da, fizikən ayrı düşmüşük. Sabir Rüstəmxanlı da bizləri ayrı salanlara səslənir, bir döyünən bu ürəkləri araya sərhəd çəkməklə ayıra bilməyəcəklərini, ürəyimizdəki birləşmək arzusunu boğa bilməyəcəklərini hayqırır.

Poemanın dördüncü hissəsi Çanaqqalı savaşı zamanı Mustafa Kamal Atatürkün öz əsgərlərinə "Sizə ölməyi əmr edirəm" cümləsi üzərində qurulub. Bu əmr bir əsr sonra, bu dəfə 30 illik həsrətə son vermək üçün yenidən verildi. Amma bir şərtlə bu əmr yerinə yetirilə bilər, əvvəl düşməni öldürüb, illərdir yas tutanların üzünə gülüş bəxş edib, xalqın alnındakı bu qara ləkəni silib sonra ölə bilərlər. 30 il əvvəl ayaqyalın, ac-susuz Xocalıdan didərgin düşən körpələr, bu gün tank belində qayıdaraq qarlı meşədə donub qalan, gözləri çıxarılan körpələrin intiqamını aldı, əmri yerinə yetirdi, öldürmədən ölmədi.

Şair bütün vətən fədailərinə adsız qəhrəman deyə səslənir, onları zamanın Mete xanı, Qazan xanı, Beyrəyi, Babəki, Çingiz xanı, Qızıl Arslanı, Arpaslanı adlandırır. Məhz bu hissədə oxucu Sabir Rüstəmxanlı yaradıcılığı üçün xarakterik olan türkçülük ideyaları ilə qarşılaşır.

Əsillərinin, köklərinin Qarabağdan olduğunu, bu torpaqların tarixən onlara məxsus olduğunu iddia edən ermənilərin qarşısına ritorik suallarla çıxan şair onlara öz qısa tarixlərini xatırladır.

"Vaqifin gözəlləri bu düzdə gəzən zaman

Sənin xalqın hardaydı, sən özün harda idin?
Bu qala qayalarda bir qala da ucaldan
Pənah xanın dövründə sən hansı gorda idin?"[28]

Bizim həsrət qaldığımız Cıdır düzündə ermənilərin həyasızcasına yallı getməyi xalq olaraq bizə bir dağ çəkmişdi. Nəhayət ki, dağ çəkmək sırası bizə gəldi, haqq, ədalət öz yerini tapdı. Düzdür, bu Xocalı, Xocavənd, Xankəndi kimi tarixən bizim olan torpaqlardan hələ də, düşmən ayağı kəsilməmişdir, amma o zamanın elə də uzaqda olmadığından, nəinki Xocalı, Xocavənd, eyni zamanda, Zəngəzur,İrəvan kimi əzəli torpaqlarımızın da bir gün əsl sahiblərinə geriqayıdacağına əminik.

Şuşanın azad olunmasında əsgərlərimizin göstərdikləri şücaət dillərə dastan oldu. Bu döyüş texnikası artıq hərbi təlim kimi öyrədilməyə başlanmışdır. Sıldırımlı qayalara dırmaşaraq düşmənlə əlbəyaxa döyüşən igidlərimiz düşmənə gözləmədiyi zərbə vuraraq onları məhv etdi. Sanki bir ruh kimi düşmənin başının üstünü aldı. Sabir Rüstəmxanlı da bu döyüşü incəliklərinə qədər təsvir edərək oxucunu heyrətləndirməyi bacarır.

"Əsgər qalxır qalaya, çıxılmazdır daş-divar.
Ancaq əsgərimin də poladdan pəncəsi var.
Qartal dırnaqlarını daşlara çala bilir,
Uçurumun üstündə asılıb qala bilir" [28]

Şair bu əməliyyatı Daşaltı əməliyyatı ilə müqayisə edir. Daşaltı əməliyyatında kimlərinsə oyununa qurban olan igidlərimizin qisası məhz Şuşa əməliyyatında alında. Bir zamanlar Şuşadan gedənlərin övladları bu gün qayıdaraq illərdir ağlar qalan dərələrə yasını unutdurdu, yenidən Cıdır düzündə Qarabağ şikəstəsi səsləndirdi.

Əsərdə əsgərin öz yaralı dostunu çətin məqamada tək qoymayıb onu canı bahasına çiyninə alaraq qayalara dırmaşması səhnəsi oxucunu həm qürurlandırır, həm də kövrəldir. Sanki bu dağlara dırmaşdıqca əsgərə güc gəlir, yaralı dostu Şuşanı öz gözləri ilə görsün deyə var gücü ilə çalışır. Zirvəyə qalxan dostların qarşısında Nəcəf bəyin, Əhməd bəyin, Natəvanın yurdu Şuşanın cənnət qapıları açılır. Nəhayət, uzun illər sonra

haqq, ədalət öz yerini tutur. Şair bu qovuşmanı illərdir ayrı düşmüş aşiqin öz sevgilisinə qovuşmağına bənzədir.

Poemada general Polad Həşimovun, Mübariz İbrahimovun obrazları yaradılır, onların ruhunun daim Azərbaycan əsgərini qoruduğu vurğulanır.

Bir çox dövlətlər bu haqq savaşımızda yanımızda olmasa da, Türkiyə və Pakistan istər müharibə dövründə, istərsə də müharibədən sonra hər zaman yanımızda olduqlarını hər cəhətdən göstərdilər. Sabir Rüstəmxanlı poemada da bu dövlətlərin adını adını qürurla çəkir, minnətdarlığını bildirir.

Poemanın sonu "Yolüstü söhbət və ya Qələbədən 25 il öncə yazılmış nəticə" adlanır. Bu hissədə şair hələ 25 il öncə yazdığı şeirini verir. Bu şeirdə az da olsa ümidsizliklə qarşılaşmırıq. Sabir Rüstəmxanlı hələ 25 il öncə bu qələbəyə qəlbən inanır, Azərbaycan əsgəri bu inamı doğrultdu, düşmənin gözlərini oydu, bizləri öz arzumuza çatdırdı. Qəlbinin dərinliklərində Vətənini bütöv görmək istəyən şair Ərdəbili, Göyçəni, Zəngəzuru, Təbrizi səsləyir, niyə susduqlarını soruşur, onları ayağa qalxmağa səsləyir. Əsəri oxuyan oxucuda şairin qəlbinin dərinliklərində olan bu arzusunun da həyata keçəcəyinə, parçalanmış Vətənimizin yenidən bir bütöv olacağına heç şübhə etmir.
Yaradıcılıq ilhamını 44 günlük Zəfərimizdən alan şairlərimizdən biri də Əlirza Həsrətdir. Onun "Barıt qoxulu çiçək" lirik-fəlsəfi poeması da zəfərdən doğan sevinc hissləri ilə qələmə alınıb. Poema proloqla başlayır. Proloq hissədən başlayaraq biz sənətkarın müharibə başlayan gündən son günə qədər keçirdiyi hissləri, təlatümlərini duyuruq.

Şair Vətən müharibəsinin başlanğıcını Tovuz döyüşlərində görür, bu döyüşləri "Qarabağ şikəstəsinin nəqarət yeri" adlandırır. Yurdun mərd əsgərinə səslənərək Qarabağın artıq işğaldan azad olunmaq vaxtının gəldiyini, bu azadlığı əldə etmək üçün tək ümidin onlara olduğunu deyir.

Əlirza Həsrət poemada məcaz növlərindən, xüsusilə, təşbehlərdən yerli-yerində istifadə edərək əsəri bədii cəhətdən mükəmməlləşdirmişdir. Türkiyəni bir mələyə,

Azərbaycanı pəriyə bənzədir, bu iki dövlətin arasında olan çəpərin sökülüb atılması gərəkdiyini vurğulayır.

Onun ürəyi öz köksünə sığışmır, döyüş meydanından gələn xoş xəbərləri eşitdikcə bu qələbəni qələmə almaq üçün ruhən özünü hazırlayır. Səngərdə döyüşən əsgəri məğrur dayanmağa səsləyir, bu qələbənin Azərbaycan əsgərinin olacağına sonsuz inam nümayiş etdirir.

Torpaqlarımızın azadlığı uğrunda vuruşanları bəxtəvər adlandırır, çünki onlar tarixi yenidən yazır. Torpağa tökülən hər damla əsgər qanının barıt qoxulu bir çiçək açacağını vurğulayır.

Əsərdə Ali Baş Komandir İlham Əliyevin obrazı yaradılır. Onun siyasətini, iradəsini, xalqına olan bağlılığını alqışlayır, onu dahi  komandan, əlçatmaz zirvə adlandırır. Bu yurdun şanını, şöhrətini özünə qaytaran bir şəxsiyyət kimi müqəddəs bayrağımız dalğalanan zirvədə bir gün Ali Baş Komandanın heykəlinin ucalacağını vurğulayır.

"Vur, komandir" sözlərini oxuduqda insan cuşa gəlir, ruhlanır, oxucu özünü düşmənlə üz-üzə olan əsgərin yerinə qoymağa çalışır. Şair düşmənə qan udduran igidlərimizi aslana, şirə bənzədir. Şuşanı pirə bərabər tutur, buranı Vətənin canı, könüllərin sultanı adlandırır. Bu torpaqlara getməyi pirə getmək qədər müqəddəs hesab edir. Bu torpaqların azadlığı uğrunda  şəhid olanları Vətənin köksünə sancılmış ən dəyərli medal, orden kimi qiymətləndirir. Məmləkəti təltifinə görə təbrik edir.

Şair bu zəfər münasibətilə hər kəsə göz aydınlığı verir, Qarabağa qayıdışın təməlini qoyan Ali Baş Komandanı və müzəffər Azərbaycan ordusunu alqışlayır.

8 Noyabr 2020-ci ildə ordumuzun düçmənlə əlbəyaxa döyüşü nəticəsində Şuşa azad olundu. Cənab Prezident İlham Əliyev bu tarixi əhəmiyyətli xəbəri canlı olaraq xalq televizyadan səsləndirdi. "Əziz, Şuşa, sən azadsan!" sözləri milyonlarlaazərbaycanlının qəlbinə sevinc hissləri bəxş etdi. Bu sevincli xəbəri eşidən Əlirza Həsrət ilk olaraq şuşalı dostu Elçin İsgəndərzadəyə zəng edir, dostunun sevincdən

titrəyən səsini eşitdikdə kövrəlir. Bu kövrəkliyi tək Əlirza Həsrət yox, xalq olaraq hər birimiz yaşadıq.

Qələbəni duyan hər kəs küçələrə çıxdı, “Zəfər marşı”na əl qaldırıb oynadı, üçrəngli bayrağımıza sarılıb Qarabağ Azərbaycandır! dedi. Müharibəyə gedən oğullarını ürəklərində qorxu və kədərlə yola salan analar, zəfərlə qayıdanqəhrəmanları sevinc və qürurla qarşıladı.

Vətən müharibəsində qazandığımız zəfəri alqışlayan şairlərimizdən biri də Balayar Sadiqdir. Onun “Zəfər simfoniyası” poeması proloq, epiloq və beş hissədən ibarətdir.

Proloq hissəni şair Azərbaycan bayrağına müraciətlə yazır, azadlığın gülümsəyən dodağı adlandırdığı üçrəngli bayrağı illərdir uzaqdan baxdığımız torpaqlarda yenidən dalğalanacağı üçün təbrik edir. Hələ də bu bizdən ayrı olan Zəngəzur, Göyçə kimi tarixi torpaqlarımızın yuxularında dalğalanan bu bayrağın bir gün yuxularda yox, reallıqda dalğalanacağına ümid edir. Bu müqəddəs bayraq dalğalandığı hər yerdə azadlıq ətri yaydığını bildirir.

Birinci hissə hər bir kəlməsində Vətən sevgisi olan Ali Baş Komandana həsr olunmuşdur. “Qarabağ Azərbaycandır!” nidasını səsləndirib, sonra da sözünün üstündə duran müzəffər Baş komandanı alqışlayan şair onu Dədə Heydərin sərkərdə oğlu adlandırır, hər bir azərbaycanlının bu sərkərdənin adıyla öyündüyünü vurğulayır.

Özünü vətənin ağsaçlı oğlu adlandıran Balayar Sadiq gecə gündüz demədən ömrünü səngərdə keçirən əsgəri alqışlayır, əsgərin həyatını hünər dünyası adlandırır.
Əsərin sonuncu hissəsi “Bir oğlun dönmədi döyüşdən, Vətən”. misrası ilə başlayır. Hər bənddə bu misranı oxuduqca insanın ürəyi yanır, döyüşdən dönməyən oğulların analarının fəryadı qulaqlarımızda səslənir.  Döyüşdən qayıtmayan bu əsgərin səngərdə yeri boş qalsa da, səngər onun hünəriylə dolur.

Canının canı adlandırdığı Vətəninin ömrünə ağ günlərin gəldiyini görən şair böyük sevinc hissləri yaşayır, hər əsgər ürəyinin çiçəyi çırtlamış bu günləri bir güzgü kimi əks etdirdiyini təsvir edir.

İkinci Vətən müharibəsində məğlubedilməz Azərbaycan ordusunun 44 günlük Zəfər yolu Xalq şairi Nəriman Həsənzadənin yaradıcılığında da öz yerini almışdır. Onun tarixi qələbəmizlə bağlı yazdığı lirik şeirlər və epik poemalar oxucular tərəfindən yüksək dəyərləndirilmişdir.

Şairin "Qarabağnaməm İlhamdır" və "İlhamın Zəfər Yolu" poemaları qazanılan qələbənin əsas memarı olan Ali Baş Komandan İlham Əliyevə həsr olunmuşdur. Hər iki poema İlham Əliyevin müharibə dövründə çıxışları zamanı dediyi sözlərlə başlayır. "Qarabağnaməm İlhamdır" poeması altı hissədən ibarətdir. Əsər on milyon əhalinin arandan, paytaxtdan- ölkənin hər yerindən axın-axın düşmən üstünə yeriməsi öz əksini tapmışdır. İkinci hissədən başlayaraq Ali Baş Komandanın obrazı yaradılmışdır. O, qoşunların qabağında gedən bir bayrağa, hər müsahibədə mənfur suallarla hücum edənləri susduran bir silaha bənzədilmişdir.

Nəriman Həsənzadə əsərdə Türkiyə-Azərbaycan birliyini yüksək qiymətləndirmiş, bu iki ölkənin prezidentlərini, onların simasında iki xalqı qardaş adlandırmışdır. Bu qardaşlığın təməlini qoyduğu üçün Ulu Öndərə rəhmət diləmişdir.

Azərbaycanın tarixini vərəq-vərəq dərindən araşdıran Ali Baş Komandan bu dəfə özü tarix yazdı. Şair əsrin sərkərdəsi adlandırığı Komandandan sadəcə bir şey istəyir. O da göydə Allahın qoruduğu bu xalqı yerdə mənfurlardan, şərdən, böhtandan qorumağıdır.

Əsərin ən təsirli hissəsi dördüncü hissədir ki, burada şəhidlərimiz anılmışdır. Şair şəhidlərin ölmədiyini, onların daim bizimlə olduğunu vurğulayır.

"Şəhidləri basdırmırıq,
Biz əkirik,
O bitəcək.

Yerdən qisas göyərəcək.

Qatıdacaq. O gələcək” [6]

Nəriman Həsənzadə şəhid anasının, şəhid atasının məğrurluğuna heyran qalır, dünyanın heç bir yerində belə xalqın olmdığını böyük qürur hissi ilə qələmə alır. O, torpağa ayaq basan hər kəsə səslənir, diqqətli olmağa çağırır, çünki bu torpağın hər şəhid qəbri olan yeri Fəxri Xiyabandır.

Ali Baş Komandana müraciətlə başlanan növbəti hissədə düşmənin iç üzünü açan şair onları aravuran, intriqan, düşük adlandırır. Vandal düşmənin torpaqlarımızı necə darmadağın etdiyini, qələbə qazanan əsgərlərin bayraq sancmağa belə yer tapa bilmədikləri əsgərin dili ilə danışılır.

Sonuncu hissədə Qızıl Arslanın varisi, Ulu Öndər məktəbinin davamçısı adlandırdığı Cənab Prezidentin adını eşidəndə şair fərəh hissi keçirdiyini, bu sərkərdənin göstərdiyi şücaətə tarixin şahidlik etdiyini, mənfur düşmənin əvvəl Rusiyanı, daha sonra bütün dünyanı üstümüzə qaldırmaq planlarını öz güclü siyasəti ilə darmadağın etdiyini böyük qürur hissi ilə qələmə alır.

Nəriman Həsənzadə “İlhamın Zəfər Yolu” lirik poemasını Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr etmişdir. Poema Türkiyə mətbuatında da nəşr olunmuşdur. Poema yeddi hissədən ibarətdir. İlk hissədən başlayaraq illərdir doğma insanlardan uzaq düşmüş Şuşanın həsrətlə gözlədiyi doğmalarına qovuşmağından doğan sevinc hissləri əks olunur. Qarabağın Baş Tacı adlandırdığı Şuşanın ermənilər tərəfindən dağıdılan küçələrinin, evlərinin bərpa olunması, düşmən tapdağında matəm havasına bürünən Cıdır düzündə yenidən Qarabağ şikəstəsinin səslənməsi yazıçının qəlbini iftixar hissi ilə doldurur, bu abadlaşdırma işləri azad olunmuş torpaqlarımızın daha gözəl və parlaq gələcəyindən xəbər verir.

Mədəniyyət paytaxtı olan Şuşanın hər qarış torpağının, gecəsinin, gündüzünün bu torpaqlarda canından keçən şəhidlərdən bizlərə əmanət qaldığı, bu əmanətə gözümüz

kimi baxmağımızı, xəyanətkar düşmənin hiylələrinə qarşı həmişə gözüaçıq olmağı məsləhət göür.

Digər poemada olduğu kimi bu poemada da Nəriman Həsənzadə Azərbaycan-Türkiyə qardaşlığını alqışlayır, bu tarixi zəfərin qazanılmasında ən böyük dəstəkcimizin məhz Türkiyə olduğunu vurğulayır.

II Qarabağ müharibəsi və onun gedişi, eyni zamanda bu dövrdə baş verən siyasi məsələləri əks etdirmək baxımından Abuzər Turanın “Zəfər nəğməsi” poeması xüsusi əhəmiyyət kəsb edir.

Bu müharibə bizə sözdə deyil, əməldə arxa-dayaq duranları, kimlərin əl altından pis günlərimizi görmək istədiyini, kimlərin zahirdə başqa, batində başqa əməllərə sahib olduqlarını üzə çıxardı. Bir neçə hissədən ibarət olan əsərin III hissəsi məhz bu mövzuya həsr olunmuşdur.

Məlumdur ki, müharibə dövründə bizə dəstək olan dövlətlərdən biri Türkiyə idisə, biri də Pakistan idi. Əbuzər Turan da bu dəstəyi ədəbi əsərin mövzusuna çevirmiş, bununla Pakistan xalqına və Pakistan prezidenti İmran Xan Əhmədi Niyaziyə xalqımız adından təşəkkürünü bildirmişdir.

Vəziri-Əzəm adlandırdığı bu insanın obrazını yaradan müəllif onun siyasət yolunu göstərmiş, Pakistanın həyatında oynadığı müstəsna rol yüksək qiymətləndirilmişdir. Ölkəni bürüyən taun azarından, düşmən hücumlarından öz ölkəsini xilas edən böyük bir siyasətçi kimi obrazı yaradılmışdır.

Müharibə zamanı açıq şəkildə öz mövqeyini bütün dünyaya bildirməsi, həm sözdə, həm əməldə dəstəyini əsirgəməməsi , Haystana dağ çəkib yanımızda olmağı, Ermənistanı heç zaman bir dövlət olaraq tanımamağı müstəsna şəkildə dəyərləndirilmişdir.

Sonrakı hissələrdə Abuzər Turan Türkiyə-Azərbaycan-Pakistan dostluğunu alqışlayır, bu üçlüyün bütün dünyaya səs saldığını fəxrlə bəhs edir. Gələn “sülhməramlılar”ın haylarla necə yeyib içmək məclisləri təşkil etdiklərini, onların

quyruq bulayın ruslara necə yaltaqlandıqlarını təsvir edən yazıçı bir gün bu sülhməramlıların gedəcəyini düşmənin diqqətinə çatdırır. Bir gün bu üçlüyün düşmənin torpaqlarımızdan tamamilə kökünü kəsəcəyinə əminlik ifadə edir.

Vətən müharibəsi ilə bağlı yazılmış ən maraqlı və diqqətəlayiq yazılardan biri də "Zəfər yolunun hikmət xronikası və ya 44 gün-44 aforizm" başlığı altında Səlahəddin Xəlilovun yazdığı aforizmlərdir. Həcmcə böyük olmasa da, məzmunca dərin mənaya sahib olan aforizmlər toplusunda 27 sentyabrdan başlayaraq hər günün xronikası tək bir cümlə ilə verilmişdir.

Asim Yadigarın "Zəfər yolu" poeması lirik ruhlu bir əsərdir. Poemada xalqımızın qələbədən doğan fərəh hissləri qürurla yazıya alınmışdır. Zəfərə gedən yolun məhz Şuşadan keçdiyini göstərir. Bu yolu gedə bildiyimiz üçün bütün xalqımızı bəxtəvər hesab edir.

Zəfərə gedən yolu qeyrət, cəsarət, hünər yolu kimi qiymətləndirilir. Bu yolda gedərkən düşmənin otuz il əvvəl bizim baharımızı qışa çevirdiyi kimi, indi də bizim onların bahar günlərini qışa çevirmək vaxtımız çatdığını vurğulayır.

Asim Yadigar Zəfər yolununun başlanğıcını Ulu Öndər Heydər Əliyev qoyduğunu, bu yolun onun arzusu olduğunu qələmə alır. Bu arzunu həyata keçirdiyi üçün yolun davamçısı Ali Baş Komandan İlham Əliyevə alqış deyir.

Söylənilənlərdən bəlli olur ki, ədəbiyyatımıza qısa müddət əvvəl daxil olan zəfər mövzusunun bundan sonra illərdir əsərlərində nisgildən, həsrətdən yox, qalib olmağın doğurduğu qürur hissini əks etdirməyi ifadə etmək imkanı qazanmış hər bir yazıçının, şairin müraciət edəcəyi əsas mövzulardan biri kimi proqnozlaşdırıla bilər.

# NƏTİCƏ

Araşdırmaların nəticəsi olaraq Qarabağ mövzusunun ədəbiyyatımızda hər zaman müraciət edilən mövzulardan biri olması qənaətinə gəlirik. Dövr dəyişdikcə mövzu eyni qalsa da, təsvir edilən hadisələr, münsibətlər və hisslər dəyişmişdir.

Mövzu ilə bağlı rast ilk rast gəldiyimiz ədəbi mənbələr folklor nümunələri, xüsusilə, bayatılardır. Sonrakı dövrlərdə yazılan "Qarabağnamə"lər həm Qarabağın ictimai-siyasi, həm də ədəbi mühiti haqqında ətraflı məlumat verən əsas mənbələrdən biri kimi qiymətləndirilə bilər. Bu "Qarabağnamə"lər özündə həmin dövrlərdə təşkil olunan ədəbi məclislər, həmin məclislərdə iştirak edən söz ustaları haqqında dəyərli məlumatları ehtiva edir.

Qarabağın təbiətinin gözəlliyi, təbii sərvətlərinin çoxluğu dillərə dastan olmuşdur. Əlbəttə bu gözəlliyinin tərənnümü, bu gözəllikdən doğan hisslərin əks etdirilməsi şairlərin yaradıcılığında xüsusi yer tutur. Mövzuya bu cəhətdən müraciət edənlər daha çox lirik şeirlərdən istifadə etmişlər, çünki gözəlliklərdən doğan hissləri əks etdirməkdə lirik şeirlərin imkanı daha çoxdur.

Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin bədii ifadəsini XX əsrin əvvəllərində, Cümhuriyyət dövrü ədəbiyyatında da görmək mümkündür. Sovet dövründə yazılmış bədii əsərlərdə isə bu yanaşma daha çox proletar ideoloji təzyiqlərə görə üstü örtülü şəkildə qarşıya çıxır. Ermənistan-Azərbaycan arasında olan Birinci Qarabağ müharibəsi nəticəsində məğlubiyyətin gətirdiyi kədər özünü ədəbiyyatda da göstərməyə başladı. Müstəqillik dövrü poeziyasında Qarabağ mövzusuna müraciət edənlər artıq onun gözəlliklərindən daha çox, bu gözəlliklərə duyduqları dərin nisgili təsvir edirdilər. Qarabağ dərdi ilk dövrlərdən poeziyada öz əksini tapsa da, nəsr əsərlərində bu mövzuya müraciət daha çox son dövrlərdə geniş vüsət almağa başlamışdır.

Araşdırmalarımız nəticəsində bu qərara gəlirik ki, ilk dövrlərdə yazılan əsərlər kəmiyyətcə çox olsa da, keyfiyyətcə o qədər də ürəkaçan olmamışdır. 2005-ci ildən sonra isə ədəbiyyatda mövzuya yeni yanaşma meydana gəlmişdir. İlk dövrlərdə yazılan

əsərlərin əksəriyyətində problem deyil duyğular ifadə olunmuş, sonrakı dövrlərdəki əsərlərdə isə problem və bu problemin həlli yolları öz əksini tapmışdır. Bu da əsərlərin həm kəmiyyət, həm də keyfiyyətcə daha ürəkaçan vəziyyətə gəlməsinə yol açmışdır.

Tədqiqat işinin mövzusu epik şeirdə yazılan əsərlər olduğu üçün araşdırmalarımızı daha çox bu yöndə apardıq və qənaətə gədik ki, müstəqillik illərində epik şeirdə Qarabağ mövzusu başlığı altında yazılmış əsərlərin əksər hissəsi Birinci Qarabağ müharibəsi zamanı baş vermiş hadisələr, yurd-yuvasından qaçqın düşmüş insanların acınacaqlı taleyi, Xocalı faciəsi və bu münaqişə başladığı dövrdən bu yana vətən yolunda canından keçən şəhidlərimizlə bağlıdır.

Birinci Qarabağ müharibəsi dövründə baş verən hadisələrin təsviri ilə bağlı yazılan əsərlərdə,əsasən, müharibədə məğlub olmağımızın səbəbləri araşdırılmış, bu məğlubiyyətə səbəb olanlar tənqid edilmişdir. Bu ağır məğlubiyyətdən sonra xalqımızın sosial həyatında yaşadığı çətinliklər, qaçqın və məcburi köçkünlərin ürəkdağlayan həyatlarının təsviri, qəlblərindəki yurd həsrəti əsas diqqət yönəldilən məqamlardan olmuşdur.

İnsanlığa qarşı törədilən faciə olan Xocalı faciəsi ədəbiyyatda əks etdirilməsi mənəvi bir vəzifə borcudur. Bu vəzifənin məsuliyyətini anlayan söz sənətkarları da bu faciənin dünyaya çatdırılması üçün yetərli sayda əsərlər yaratmışlar. Xocalı dərdinə həsr olunmuş epik şeir formasında yazılan əsərləri tədqiq edərkə aydın olur ki, mövzuya müraciətin əsas səbəblərindən biri bu faciəni dünya ictimaiyyətinə çatdırmaq olmuşdur, çünki hər bir əsərdə dünyaya, təşkilatlara müraciətlə qarşılaşırıq. Düşmənin törətdiyi insanlığa sığmaz əməlləri qələmə alanlar Xocalıya ədalət ümidi ilə yaşamışlar.

Tədqiqatımızın əsasını təşkil edən hissələrdən biri də şəhidlik mövzusudur. Bu hissədə biz Şəhidlik sözünün semantik mənasından başlayaraq epik şeirdə təşəkkül tarixini araşdırmışıq. Ən uca məqam olan şəhidlik məqamına yüksələnlərə həsr edilən bu əsərlərdə nə qədər hüzn olsa da, bir o qədər bu igidlərin göstərdikləri şücaətdən doğan fəxr hissləri öz əksini tapmışdır.

Tədqiqatımız boyunca əsərləri təhlil edərkən qarşılaşdığımız ən maraqlı məqamlardan biri budur ki, bütün müsibətlərə baxmayaraq heç bir əsərdə ümidsizlik və məğlubiyyət düşüncəsi ilə qarşılaşmırıq. Bu nümunələrdə qalibiyyətə, bir gün düşməndən qisasın alınacağına dərin inam geniş epik vüsət almışdır.

Bu qələbə ilə ədəbiyyatımızda da yeniliklər müşahidə olunur. Son iki ildə yazılan əsərlər, əsasən, Ali Baş Komandanın güclü siyasətinə, şanlı ordumuzun əzm və qalibiyyətinə, Türkiyə-Azərbaycan arasında olan qardaşlığa ithaf edilmişdir. Bundan əlavə qanlı-qadalı günlərdən əvvəl olduğu kimi yenidən Qarabağ təbiətinin gözəlliklərinin və bu gözəlliklərə qovuşmaqdan doğan sevinc, qürur hissləri sənətkarlar üçün əsas mövzulardan birinə çevrilmişdir. Zəfər sevinci epik şeirdə ilk ifadə meyarları ilə, daha çox təsvir və tərənnüm formalarında əks edilmişdir. Tarixi-ədəbi prosesin normalarına istinadən söyləmək olar ki, zaman etibarilə qələbədən uzaqlaşdıqca bədii-ictimai təfəkkürümüzün məhsulu olan ədəbi nümunələrdə bu mövzunun  sosial-siyasi, psixoloji-emosional və s. tərəflərinin də əks ediləcəyi qanunauyğun hal kimi qəbul edilməlidir.

## Ədəbiyyat siyahısı


1. Axundlu Y. İstiqlal şairləri. Bakı, “Elm”, 1998.126 səh.
2. Ədəbiyyatda Qarabağ mövzusu Respublika elmi konfransı materialları 24 aprel 2021, Bakı, Azərbaycan.
3. Əsgəroğlu Ə. “Xocalı” (poema) 4dildə./525 kitab seriyası,-Bakı: Mütərcim, 2009,-48səh.
4. Əsgəroğlu Ə. “Xocam Xocalı” Bakı, “Ərgünəş”, 2012, 112səh.
5. Günün N. “Xocalı simfoniyası”, “Vektor” Nəşrlər Evi, Bakı-2006, 84 səh.
6. Həsənzadə N. “İstiqlal əsgəri...Mübariz İbrahimov” YYSİB-Milli Virtual Elektron Kitabxana e-nəşri YYSİB-2019.
7. Həsənzadə N. “Qarabağnaməm İlhamdır”/Azərbaycan. 2020, 12noyabr,səh 8
8. Həsənzadə N. Seçilmiş əsərləri.7clddə.2-ci cild (poemalar)
9. Hüseyn F. “Yumruq günü” / Kaspi. 2020, 19 oktyabr, səh 9.
10. Xəlilov S. “Zəfər yolunun hikmət xronikası və ya 44 gün-44 aforizm” /Ədəbiyyat .2021.6 noyabr, səh 14.
11. İslam Ə.  “Şəhid sevgililər”, 3 saylı Bakı mətbəəsi.96səh.Bakı-2018
12. Kəsəmənli N. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2004, 256 səh.
13. Qarabağ dastanı Otuz ilin həsrəti-44 günün zəfəri, Təhsil, Bakı -2021. 527səh
14. Qasımlı G. “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında poema janrının inkişaf yolu və xüsusiyyətləri” Bakı-2021
15. Qəşəmoğlu Ə. “Cavanşir” / Kaspi. 2016, 16 yanvar, səh 16.
16. Qoca Fikrət. “İnqilab”/ Azərbaycan.2018, 8 fevral, səh 12.
17. Quluzadə Ə. “Şəhid şəhər”, Bakı, “Ozan”, 1998, 68 səh.
18. Mehrəliyev E. “Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu ideya və sənətkarlıq məsələləri”-Bakı, Nurlan, 2008, 324 səh.
19. Mehrəliyev E.“Müharibə və ədəbiyyat” (Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı) –B., Azərnəşr, 2000, 228 səh.

20. Məmmədli E. “Mən savaşa çağırıram”, “Vektor” Nəşrlər Evi, Bakı 2006, 170 səh.
21. Məmmədov N. “Müstəqillik Dövrü Azərbaycan şeiri və folklor”, Bakı 2018.
22. Müstəqillik Dövrü Azərbaycan ədəbiyyatı 2 cilddə I cild, “Elm və Təhsil”, Bakı 2016.
23. Nəcəfova M. “Qarabağ mövzusunun poeziyada işlənmə istiqamətləri” Bakı, “MBM”, 2009, 144 səh.
24. Nəcəfova M. “Müasir Azərbaycan poeziyasında Qarabağ” Bakı 2018.
25. Nəvvab Mir Möhsün “Təzkireyi-Nəvvab”, Bakı-Azərbaycan, 1998.560səh.
26. Novruz C. “Şuşa yolu” / Azərbaycan. 2002, 17 iyul, səh 17
27. Rüstəmxanlı S. “Qarabağa dönüş” / Ədəbiyyat. 2020, 24 dekabr, səh 2-5
28. Salahzadə Ə. “Xocalı Xəcilləri”, Şirvannəşr, 2006, 48 səh.
29. Şəhid şəhər-Xocalı; metodik vəsait / F.Köçərli adına Respublika Uşaq Kitabxanası-Bakı, 2017. 39 səh.
30. Yaqub Z. “O qızın göz yaşları” (poema), B., Gənclik, 2005, 32 səh.
31. Yaqub Z. Əsərləri, 13 cilddə, ıx cild, Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 352 səh.
32. Yaqub Z.. Əsərləri, 13 cilddə, xı cild, Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 376səh.

## İNTERNET RESURSLARI

33. http://www.anl.az/down/meqale/adalet/2013/sentyabr/325983.htm
34. http://www.anl.az/down/meqale/edebiyyat/2020/dekabr/744741.htm
35. http://www.anl.az/down/meqale/edebiyyat/2020/oktyabr/720698.htm
36. http://www.anl.az/down/meqale/edebiyyat/2020/oktyabr/720942.htm
37. http://www.anl.az/down/meqale/edebiyyat/2021/yanvar/731254.htm
38. http://www.anl.az/down/meqale/medeniyyet/2013/sentyabr/49.htm

39. http://www.anl.az/down/meqale/turkustan/2016/fevral/479320.jpg
40. http://www.anl.az/down/meqale/turkustan/2016/fevral/479320.jpg
41. http://www.anl.az/down/meqale/ulduz/2021/1/733531(meqale).pdf
42. http://www.anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_noyabr2009/94729.htm
43. http://www.azyb.az/index.php/culture/post/92
44. http://www.azyb.az/index.php/literature/post/118
45. http://www.millixitabxana.az/dissertations/letter/N
46. http://yarpaq.az/az/edalet-esgeroglu-xocam-xocali-poema/test
47. https://525.az/news/166802-sabir-rustemxanlinin-qarabaga-donusu-resenziya
48. https://525.az/news/180224-ferdilik-ve-ferqlilik--neriman-hesenzade-poeziyasi
49. https://edebiyyatqazeti.az/news/poeziya/4192-yaddas
50. https://edebiyyatqazeti.az/news/poeziya/6662-qarabaga-donus
51. https://edebiyyatqazeti.az/news/poeziya/6940-barit-qoxulu-cicek
52. https://ededbiyyatqazeti.az/news/poeziya/6255-dirilis-marsi
53. https://kaspi.az/az/derdimizin-qan-rengi/
54. https://kaspi.az/az/sehidlik-qehremanliq/?action=disablemobile
55. https://medeniyyettv.az/az/news/1599/tariximizin-sehid-qani-ile-yazilan-huner-sehifesi-edebiyyatimizda
56. https://moderator.az/az/cemiyyet/493919/xocali-soyqirimi-poemalarimizda/
57. https://modern.az/az/news/122622
58. https://science.gov.az/az/news/open/19516
59. https://teleqraf.com/news/art/89073.html
60. https://www.adalet.az/mobil/215724
61. https://www.adalet.az/mobil/21631
62. https://www.adalet.az/mobil/226648
63. https://www.edebi.net/index.php/kardes-edebiyatlar/azerbaycan-edebiyat/azerbaycan-cumhuriyeti/4991-n-bi-x-zri-1924-2007

64. https://www.xalqcebhesi.az/news/literature/32894.html
65. https://www.ens.az/az/molla-penah-vaqif-bax
66. https://portal.azertag.az/az/node/18735
67. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/3499-vetenperverliyin-poetik-derki
68. http://edebiyyatqazeti.az/news/poeziya/7527-sehid-etri